Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

25-27 YANVAR 2020-ci il

№ 13 (4144)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# DEPUTATLARIN YENİ TƏRKİBİ İSLAHATLARIN TƏRKİB HİSSƏSİ OLACAQ - PREZİDENTİN DAVOSDAN AZƏRBAYCAN SEÇİCİSİNƏ TARİXİ ƏHƏMİYYƏTLİ MESAJI...

■ səh. 3 ■

Dağlıq Qarabağa qanunsuz gələnlər ən çox Rusiya, ABŞ və Fransa vətəndaşlarıdır - Paradoks...

■ səh. 9 ■

”LUKoil”un Azərbaycanda yeni fəallaşmasının maraqlı kommersiya tərəfləri...

■ səh. 10 ■

Mətbuat Şurası ”qara siyahı” ilə bağlı yenilik tətbiq etdi

■ səh. 3 ■

Ermənistan ordusunda silahlı qətllər ”virus effekti” ilə yayılır...

■ səh. 11 ■

NATO Gürcüstan - Rusiya münasibətlərində yeni mərhələ hazırlayır - Rusiyanın 200 kilometrlik əraziləri Alyans dronlarının müşahidəsi altında...

■ səh. 8 ■

Paşinyanın hakimiyyəti ilə siyasi əməkdaşlıq edən təşkilatların sayı sürətlə azalır...

■ səh. 7 ■

Başqa ölkələr əhali artımının qarşısını almaq istəyir, Azərbaycan iqtisadi artımı əhali artımına daha yaxşı uyğunlaşdırmaq axtarışında...

■ səh. 13 ■

Bakının tarixi mərkəzini yaratmaq yolunda iş başladı - hansı rayonlar ləğv ediləcək...

■ səh. 15 ■

Sabirabad Mərkəzi Xəstəxanasında fövqəladə nə baş verib...

■ səh. 13 ■




■ səh. 5 ■

## Ermənistanın Türkiyəni strateji üçbucağa salmaq planı alınmır - Ermənistan-Yunanıstan-Kipr sammiti iflasda...



İlham Əliyev Davosda Yaxın Şərqin müharibə ocaqlarının söndürülməsi reseptini təklif etdi - supergüclərə çağırış...

■ səh. 9 ■

Rusiya-Azərbaycan strategiyasında yeni hadisə - «LUKoyl» bir qədər geri çəkilmişdi, Davos görüşündən sonra «Naxçıvan» neftinə yenidən qayıtdı...

■ səh. 4 ■




Rusiya televiziyasından saxta erməniçilik ideologiyasına zərbə - azərbaycanlıların 1988-ci il «Qafan qırğını»nın üstü açılır

■ səh. 5 ■

■ səh. 6 ■

Deputat şərəfi və seçicilərin əlini öpmək kimi jestlərin uyğunsuzluğu...



■ səh. 4 ■

Davosda Əliyevlə görüşən məşhur şirkət Azərbaycanın indiki sığorta bazarında hansı problemləri həll edəcək...



■ səh. 14 ■

Akademiklərin yazdığı 7 cildlik ”Azərbaycan tarixi”nə sərt tənqidlər səngimir



■ səh. 12 ■

Kəramət Böyükçöl seçkidə xalq yazıçıları Anar və Elçinlə rəqib olsaydı, nə edərdi?



■ səh. 13 ■

Xaricdə oxuyan gənclərimizin yarıdan çoxu rayon məktəblərinin məzunlarıdır...





# Prezident İlham Əliyevin Davosda İsveçrənin Montrö şəhərinin meri ilə görüşü olub

**Prezident İlham Əliyevin Davosda İsveçrənin Montrö şəhərinin meri, Azərbaycan-İsveçrə Dostluq Qrupunun həmsədri Loran Verli ilə görüşü olub.**

Baki-xeber.com-un xəbərinə görə, görüşdə Azərbaycanla İsveçrə arasında ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etdiyi bildirilib. İki ay əvvəl İsveçrə parlamentində Azərbaycanla dostluq qrupunun həmsədri təyin olunduğunu deyən Loran Verli bu qrupa rəhbərlik etməkdən məmnunluğunu bildirib, fəaliyyəti dövründə Azərbaycanla İsveçrə, o cümlədən iki ölkənin qanunverici orqanları arasında əlaqələrin daha da sürətlə inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Söhbət zamanı Azərbaycanla İsveçrənin şəhərləri arasında əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı fikir mübadiləsi aparılıb, bir müddət əvvəl Montrö şəhəri ilə Bakının Səbail rayonunun qardaşlaşdığı bildirilib.

Görüşdə Azərbaycan şirkətlərinin İsveçrədə aktiv fəaliyyəti qeyd edilib və iki ölkənin şirkətləri arasında münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

## Azərbaycan Prezidenti Davosda "Equinor" şirkətinin baş icraçı direktoru ilə görüşdü

**Prezident İlham Əliyev Davosda "Equinor" şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşüb.**

Baki-xeber.com-un xəbərinə görə, görüşdə "Qarabağ" yatağı layihəsi müzakirə olunub. "Equinor" şirkətinin 1994-cü ildən Azərbaycanda olduğunu deyən dövlət başçısı ölkəmizdə onun fəaliyyətinə çox böyük əhəmiyyət verildiyini qeyd edib.

Söhbət zamanı alternativ enerji mənbələri üzrə layihələr barədə də fikir mübadiləsi aparılıb.

## Mixail Qusman Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib

**Azərbaycan və Rusiyanı dərin tarixi köklər bağlayır. "Trend"in məlumatına görə, bunu TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransı çərçivəsində deyib.**



O, bu konfransın keçirilməsinə dəstək verdiklərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib: "Biz hamımız xatırlayırıq ki, ümummilli lider Heydər Əliyev Azərbaycanla Rusiya arasında münasibətlərə, mədəni əlaqələrə necə əhəmiyyət verirdi və bugünkü konfrans onun vəsiyyətlərinin təcəssümüdür".

Konfransın vacib əhəmiyyətindən danışan M.Qusman qeyd edib ki, Rusiyadan bu tədbirə ictimai və mədəniyyət xadimlərindən ibarət böyük nümayəndə heyəti gəlib: "Hər kəs Bakıda olmaqdan böyük sevinc duyur. Məsələ təkcə Azərbaycan qonaqpərvərliyində deyil, həm də nümayəndə heyətinin əhatə olunduğu dostluq, əməkdaşlıq, diqqət mühitindədir".

Qeyd edək ki, Bakıda Azərbaycanla Rusiya arasında əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransı keçirilir. Üçgünlük konfrans Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və TASS informasiya agentliyinin dəstəyi ilə təşkil edilib.

Yanvarın 24-də konfrans çərçivəsində "Mədəniyyətlərin dialoqu xalqların dialoqunun əsasıdır" mövzusunda dəyirmi masa keçirilib. Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayevin, TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiya Federasiyasının Əməkdar jurnalisti Mixail Qusmanın və Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun moderatorluğu ilə keçirilən tədbirdə dövlət strukturlarının nümayəndələri, tanınmış mədəniyyət, təhsil və elm xadimləri, hər iki ölkədən olan jurnalistlər iştirak edib.

Konfrans çərçivəsində TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiya Federasiyasının Əməkdar jurnalisti Mixail Qusmanın "Hakimiyyət formulu" və "Həyat formulu" kitablarının təqdimatı və digər mədəni tədbirlər nəzərdə tutulur.

# İsrail səfiri ölkəsinin Azərbaycanın nasizmlə mübarizədə töhfələrinə dəyər verdiyini dedi

**İsrail Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir. Bunu İsrailin Azərbaycandakı səfiri Corc Dik mətbuat konfransında deyib.**

O bildirib ki, İsrail ölkələr arasında əldə olunan istenilən sazişi dəstəkləyəcək: "Biz münaqişənin nə olduğunu bilirik və Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT Minsk Qrupu həmsədrlərinin səylərini tam dəstəkləyirik. İsrail ölkələr arasında əldə olunan istenilən sazişi dəstəkləyəcək".

"Azərbaycan həqiqətən də İsrailə dost ölkədir. Ölkələr arasındakı dostluq münasibətləri İsraildə hər kəs tərəfindən alqışlanır. Bu il martın 2-də İsraildə parlament seçkiləri keçiriləcək və mən əminəm ki, nəticələrdən asılı olmayaraq münasibətlər çiçəklənməkdə davam edəcək, çünki bu strateji xarakter daşıyır- o deyib.




Səfir xatırladıb ki, 2019-cu il dekabrın 25-də öz etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edib: "Həmin gün mən İsrailə dost olan ölkədə vəzifəlrimin icrasına başladım. Azərbaycan müxtəlif millət və dinlərin sülh və təhlükəsizlik şəraitində yaşadığı ölkədir. Bu dövlətin əsasında tolerantlıq və qarşılıqlı hörmət dayanır. Qeyri-sabit regionda Azərbaycan və İsrail sülh, sabitlik və təhlükəsizliyin dayağıdır".

Səfir əlavə edib ki, İsrail Azərbaycanın nasizmlə mübarizəyə töhfəsini yüksək qiymətləndirir.

Azərbaycanla İsrail arasında birbaşa aviareyslərin sayının artacağını deyən Corc Dik bildirib ki, turizm sahəsində ikitərəfli əməkdaşlıq artan xətt üzrə davam edir: "2016-cı ildə İsraildən Azərbaycana gələn turistlərin sayı 10 min nəfər təşkil edirdisə, 2019-cu ildə bu rəqəm 60 min nəfərə çatıb. Ölkələr arasında birbaşa aviareyslərin həftədə beş dəfə həyata keçirilməsi barədə saziş var. Biz bunu yeddi dəfəyədək artırmaq niyyətindəyik".

Əməkdaşlığın digər sahələri barədə danışan səfir deyib ki, İsrail neftin böyük hissəsini Azərbaycandan idxal edir: "Ölkələr arasında təhlükəsizlik və terrorçuluqla mübarizə sahəsində münasibətlər inkişaf edir".

# Baş Prokurorluq 10 yaşlı Nərminin qatilinin vəkilinin uydurmalarını təkzib etdi

**Baş Prokurorluğun olayla bağlı açıqlamasında deyilir:**

Tovuz rayonunun Dondar Quşçu kənd sakini, 10 yaşlı Nərmin Quliyevanı qəsdən öldürməkdə təqsirləndirilən İlkin Süleymanovun vəkili Əlibaba Rzayevin müdafiəçisi olduğu şəxsə istintaq zamanı guya işgəncə verməklə etirafedici məzmunlu ifadə verməyə məcbur edilməsi ilə bağlı səsləndirdiyi fikirlər həqiqəti əks etdirmədiyindən tərəfimizdən qəti şəkildə təkzib edilir.

Belə ki, İ.Süleymanov şübhəli və təqsirləndirilən şəxs qismində müdafiəçinin iştirakı ilə dindirilərkən törətdiyi əməli tam etiraf edib, o cümlədən keçirilmiş prosessual istintaq hərəkətləri zamanı müdafiəçisinin və hal şahidlərinin iştirakı təmin edilib, bundan başqa məhkəmə-tibbi ekspertləri tərəfindən müayinə olunarkən, eləcə də 1 saylı istintaq təcridxanasına daxil olarkən İ.Süleymanovun bədənində xəsarət və ya xəsarət izi aşkar edilməyib.

İ.Süleymanovun istintaq təcridxanasına daxil olanadək, eləcə də sonrakı dövr ərzində hər hansı işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara məruz qalması barədə şikayəti daxil olmayıb.

Cinayət işi üzrə intensiv istintaq hərəkətlərinin həyata keçirildiyi bir vaxtda ayrı-ayrı şəxslər tərəfindən heç bir hüquqi əsasları olmayan mülahizələrin səsləndirilməsi yolverilməzdir və istintaq araşdırmalarının maraqlarına zidd olaraq ictimaiyyətdə yanlış fikirlərin formalaşmasına xidmət etməklə cinayət işinin istintaqına təzyiq kimi qiymətləndirilir.

**Azərbaycan Prezidenti İlham Əliyev Davosda "Strateji baxış: Avrasiya" mövzusunda konfransda yeni formalaşacaq parlamentdən danışıb. Ölkə başçısı bildirib ki, 2019-cu il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərinin nəticələri üzrə formalaşdırılacaq Azərbaycan parlamentinin yeni tərkibi ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların mühüm hissəsi olacaq:**

# Deputatların yeni tərkibi islahatların tərkib hissəsi olacaq - Prezidentin Davosdan Azərbaycan seçicisinə tarixi əhəmiyyətli mesajı...




"Yaxın aylarda əhaliyə etimad etdikləri şəxsləri seçmək üçün növbədənkənar parlament seçkiləri keçirəcəyik. Seçkilərdən sonra isə parlament islahatların vacib hissəsi olacaq".

Prezident qeyd edib ki, Azərbaycan qonşu ölkələr barəsində dostluq siyasəti yürüdür: "Lakin milli maraqlar hər şeydən üstündür". Dövlət başçısı aparılan islahatlar barədə də fikirlərini bildirib: "Biz siyasi-iqtisadi sahədə ciddi islahatlar aparmağa müvəffəq olduq. Nailiyyətlərimiz Ümumdünya İqtisadi Forumun qiymətləndirilməsi və Davos İqtisadi Forumun işində öz əksini tapıb. İnfrastruktur, yolların keyfiyyəti sahələrində bir çox nailiyyətlər əldə etdik, bu göstərici üzrə dünyada 27-ci yerdəyik".

İ.Əliyev əlavə edib ki, həyata keçirilən islahatlar çərçivəsində hökumətin tərkibi yenilənib: "Hökumətdə yeni adamlar var. Onlar yüksək səviyyədə təhsil almış və müasir dünyagörüşləri olan gənclərdir. Mən dəfələrlə demişəm ki, XXI əsrdə uğur qazanmaq yalnız XX əsrin baxışlarına riayət etmədən mümkündür. Bu səbəbdən, nəinki hökumətdə, həm də Prezident Administrasiyasında yeni adamlar lazımdır. Burada da böyük dəyişikliklər baş verib".

Göründüyü kimi, ölkə başçısı yeni formalaşacaq parlamentlə bağlı öz düşüncələrini qısa da olsun ifadə edib. Bununla ölkə başçısı həm də Azərbaycan seçicisinə tarixi əhəmiyyətli bir mesaj vermiş olub. Azərbaycan vətəndaşları da bundan irəli gələn addımları atmalıdırlar. Yəni ortaya prinsipial mövqe qoyub, layiqli şəxslərin parlamentdə təmsil olunmasını təmin etməlidirlər. Ölkə başçısının yeni parlamentlə bağlı fikirlərindən başqa hansı nəticəni çıxarmaq olar?

## *Qabil Hüseynli: "Biz yeniləşmə istəyiriksə, ağzını açıb danışmayan deputatı yenidən ora niyə seçməliyik?"*

Politoloq Qabil Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, ölkə başçısının beynəlxalq tribunadan səsləndirdiyi bu önəmli fikirdən həm vətəndaşlarımız, həm də seçkinin keçirilməsinə məsul olan şəxslər ciddi nəticə çıxarmalıdırlar: "Ölkə başçısının yeni parlamentdən gözləntiləri çoxdur. Buna görə də orada layiqli adamların təmsil olunması lazımdır. Bu həm vətəndaşın, həm də seçkini keçirən qurumların məsuliyyətinə aid məsələdir. Ölkə başçısının fikirlərindən belə nəticə hasil olur ki, yeni parlamentdə daha çox iqtisadi və politoloji təfəkkürü olan deputatların təmsilçiliyi arzulanır. Aparılan seçki kampaniyaları bununla bağlı tam əminlik yaratmasa da, nikbin olmağa da əsas verir. Çünki proses hələ bitməyib. Ola bilsin ki, ciddi elənmə prosesi qabaqdadır. Ancaq seçkilərdə iddiasını ortaya qoyan namizədlərin arasında yaxşı gənc iqtisadçıları görürəm. Həmin adamların parlamentdə təmsil olunması Prezidentin dediyi islahatlara dəstək ola bilər. İndiki mərhələdə ölkənin iqtisadiyyatı ilə bağlı önəmli proqramların hazırlanması lazımdır. Bu qanunvericilik təşəbbüsü ilə də savadlı millət vəkilləri çıxış edə bilər. Prezidentin bu etimadını doğrultmaq üçün şəffaf şəkildə seçilən parlament formalaşmalıdır. Vətəndaşa "get filankəsə səs ver" kimi təzyiqlər edilməməlidir.

*"Parlamentdə yeni, savadlı, media ilə işləməyi bacaran millət vəkilləri olsa, onda Prezidentin mesajlarına adekvat cavab verilmiş olar"*

Ölkədə islahatlar gedirsə, parlament də ona dəstək olmalıdır. Bu istəklə parlament buraxıldı. Amma təəssüf ki, biz bir çox deputatın yenidən millət vəkili olmaq istəyini görürük. Qanun bunu qadağan etmirsə, mənəvi yük baxımından onlar bunu etməməli idi. Biz yeniləşmə istəyiriksə, ağzını açıb danışmayan deputatı yenidən ora niyə seçməliyik? Parlamentdə yeni, savadlı, media ilə işləməyi bacaran millət vəkilləri olsa, onda Prezidentin mesajlarına adekvat cavab verilmiş olar".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin iclası keçirilib. Toplantını açan MŞ sədri Əflatun Amaşov gündəlikdəki məsələlər barədə məlumat verib. Gündəlik səsə qoyularaq qəbul edilib. İlk olaraq MŞ-nin 2020-ci il üçün iş planı müzakirə edilib.**

# Mətbuat Şurası "qara siyahı" ilə bağlı yenilik tətbiq etdi

Planda Şuranın Nizamnamə tələblərinə uyğun olaraq həyata keçirəcəyi fəaliyyətin konkret məqamları əksini tapıb. Bunlar başlıca olaraq komissiyaların və İdarə Heyətinin iclaslarının keçirilməsindən ibarətdir. Eyni zamanda təqvimdəki əlamətdar günlərlə bağlı toplantıların təşkili də planda əsas yer tutub. İH üzvləri milli mətbuatımızın 145 illik yubileyinə hazırlıq məsələləri üzərində də dayanıblar. Bildirilib ki, mövcud istiqamətdə ayrıca fəaliyyət planının hazırlanmasına ehtiyac var. Həmin plana nəinki ölkəmizdə, habelə mətbuat tariximiz baxımından mühüm əhəmiyyət daşıyan xarici ölkələrdə tədbirlərin təşkili barədə müddəaların əlavə edilməsi məqbul qiymətləndirilib. Müzakirələrdən sonra MŞ-nin 2020-ci il üçün iş planı təsdiqlənib.

İclasda MŞ sədri Əflatun Amaşov tərəfindən İH üzvlərinə Şuranın 2019-cu ildəki fəaliyyətinin ayrı-ayrı tərəfləri barədə də məlumat verilib. Şura sədri bildirib ki, hesabat cəmiyyətə açıqlanıb. İH üzvləri verilən məlumatı məqbul qiymətləndiriblər. Onlar prosedur qaydalara uyğun olaraq reallaşdırılacaq fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı təkliflərini də səsləndiriblər.

İclasda MŞ-nin "qara siyahı"sı ilə bağlı məsələ də müzakirə edilib. Bildirilib ki, "qara siyahı"nın tətbiq edilməsi jurnalistikadan sui-istifadə hallarına qarşı tutarlı ictimai qınaq tədbiridir. Orada yer alan kütləvi informasiya vasitələrinin işində peşə prinsiplərinə zidd hallar olub. "Qara siyahı"nın cəmiyyətdə doğurduğu effekt isə onu deməyə əsas verir ki, Şuranın bu tədbiri lazımlı idi.

İH üzvləri eyni zamanda onu da nəzərə alıblar ki, məlum siyahıda yer alan KİV-lərin əksər hissəsi çap mediasıdır və onlar hazırda ya fəaliyyətlərini davam etdirmir, ya da barələrində şikayətlər daxil olmur. Elə media qurumları da var ki, həmin siyahıdan çıxmaq üçün Şuraya müraciətlər ünvanlayıb və bu məqama həssas




yanaşılmalıdır. Həssas yanaşılmalı məqamlardan biri də MŞ-nin missiyası ilə bağlıdır. Bu missiya media orqanlarının həm işlərinə məsuliyyətlə yanaşmalarını təmin etməyə, həm də yol verdikləri nöqsanlardan nəticə çıxararaq fəaliyyətlərinə davam etmələrinə şərait yaratmağa, reabilitasiya imkanlarının dəyərləndirilməsinə köklənib. Belə bir istək MŞ-yə ünvanlanmış müraciətlərdə əksini tapıb.

Şuranın müxtəlif KİV-lərlə əlaqədar araşdırmaları da onların işlərində dönüş yaratdıqlarını deməyə əsas verir. Buna görə də "qara siyahı"dakı media orqanlarının adlarının həmin siyahıdan çıxarılmasına ehtiyac yaranıb. Məsələ müzakirə edildikdən sonra qəbul edilib.

**İclasda o da bildirilib ki, internet informasiya resurslarının sayının sürətlə artdığı hazırkı şərait üçün yeni yanaşmalar tələb olunmaqdadır. Məsələyə münasibətdə daha adekvat mexanizmlərin seçilməsi vacibdir. Bununla bağlı təkliflər verilməsi üçün iş aparılması məqbul sayılıb.**

# Rusiya-Azərbaycan strategiyasında yeni hadisə - "LUKoyl" bir qədər geri çəkilmişdi, Davos görüşündən sonra "Naxçıvan" neftinə yenidən qayıtdı...

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev yanvarın 21-də Davosda Rusiyanın "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərovla görüşüb. Sözügedən görüşdə Azərbaycanın "Naxçıvan", "Qoşadaş" yataqlarının "LUKoyl" şirkəti ilə birgə işlənməsi məsələsi müzakirə olunub və bu barədə qərar qəbul edilib.**

*"Hesab edirəm ki, "LUKoyl" şirkəti "Naxçıvan", "Qoşadaş" yataqlarının istismarında fəal iştirak edəcək"*

Söhbət zamanı, həmçinin, perspektiv strukturlar və SOCAR - "LUKoyl" əməkdaşlığı ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, "Naxçıvan" yatağı Azərbaycanın Xəzər dənizində neft və qaz yatağıdır. Bakıdan 90 km (56 mil) cənubda, 400-600 metr dərinlikdə yerləşir. "Naxçıvan" yatağı 1960-cı ildə aşkar edilib. 2010-cu ildə Almaniyanın "RWE Dea" neft şirkəti də bu yatağa maraq göstərib. "Qoşadaş" strukturu isə Abşeron yarımadasının şimal hissəsində, sahildən 15 kilometr aralıda yerləşir.

Rusiyanın "LUKoyl" şirkətinin sözügedən yataqlarda işləməsi maraqlı yenilikdir. Məsələ ondadır ki, Azərbaycan 20 sentyabr 1994-cü ildə altı ölkənin 10 neft şirkəti ilə dənizdə yerləşən "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənməsi haqqında müqavilə - hasilatın pay bölgüsü sazişi imzaladı. "Əsrin müqaviləsi" adlandırılan sözügedən sazişdə o zaman Rusiyanın "LUKoyl" şirkəti də iştirak edirdi. Adıçəkilən şirkət həmin sazişdə 10 faiz paya malik idi. Ancaq Rusiya şirkəti, praktiki olaraq, neft hasilatında aktiv iştirak etmədi. Sonra payının bir hissəsini satdı. İndi yenidən Rusiyanın neft nəhənginin Azərbaycanın neft-qaz yataqlarının istismarında iştirak etməsi ciddi yenilikdir. Bütövlükdə, bunu son bir ildə Azərbaycan-Rusiya strateji tərəfdaşlığının inkişafının böyük nəticəsi saymaq olarmı?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Rusiya və Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə inkişaf etməsinin nəticəsidir ki, "LUKoyl" kimi böyük neft şirkəti Azərbaycanın neft yataqlarının inkişafında iştirak edir: "O baxımdan, təbii ki, sözügedən qərarı iki ölkə arasında strateji tərəfdaşlığın inkişafının nəticəsi hesab etmək olar. Bunların arasında sıx əlaqə var. Çünki son illər iki ölkə arasında münasibətlər bütün sahələrdə inkişaf edir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Azərbaycandan qeyri-neft məhsullarının ən çox ixrac olunduğu ölkə məhz Rusiyadır. Ticarət dövriyyəsinin daha da artırılması və şaxələndirilməsi üzrə kompleks tədbirlər həyata keçirilir. Təsadüfi deyil ki, Azərbaycan xaricdə özünün ilk ticarət nümayəndəliyini Rusiyada açıb. İki ölkə arasında işgüzar şuralar yaradılıb və uğurla fəaliyyət göstərməkdədir.

**Rəsul Cahangirli:** *"Sözügedən qərarı iki ölkə arasında strateji tərəfdaşlığın inkişafının nəticəsi hesab etmək olar"*



**İndiyə qədər Azərbaycanla Rusiya arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası müqavilə, saziş imzalanıb. 2018-ci ildə 2024-cü ilə qədərki dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalanıb. Bu plan bir sıra sahələri əhatə edir. Ona görə də hesab edirəm ki, "LUKoyl şirkəti "Naxçıvan", "Qoşadaş" yataqlarının istismarında fəal iştirak edəcək. Yəni əvvəlki passivlik olmayacaq. Bu da bizim xeyrimizədir".**

***Vidadi ORDAHALLI***

# Davosda Əliyevlə görüşən məşhur şirkət Azərbaycanın indiki sığorta bazarında hansı problemləri həll edəcək...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Davosda "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti ilə görüşüb. Görüşə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti dövləti başçısı tərəfindən son illərdə aparılan islahatlar nəticəsində Azərbaycanda sığorta sahəsinin inkişafı və təkmilləşməsi üçün yaxşı imkanların yarandığını bildirib.**

*"Onların burada nümayəndəliyi açılsa, bu, ölkə sığortaçılarının bilavasitə Avropa bazarına həm girişini rahatlaşdırar, həm də..."*

O qeyd edib ki, "Swiss Re" şirkəti Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlarda iştirak etməyə, Azərbaycanda sığorta bazarının daha da inkişafına töhfə verməyə hazırdır.

"Swiss Re"nin əsasən fövqəladə hallarda yaranan sığorta hadisələri və onların təkrar sığortası üzrə dünyanın ixtisaslaşmış lider şirkətlərindən biri olduğunu deyən Veronika Skotti təmsil etdiyi qurumun müxtəlif ölkələrdə həyata keçirdiyi layihələr barədə məlumat verib.

Dövlət başçısı Azərbaycanda sığorta bazarının, xüsusilə daşınmaz əmlak sahəsində sığorta sisteminin səmərəli təşkilinin və inkişafının vacib olduğunu vurğulayıb. Görüşdə bu sahədə beynəlxalq təcrübənin Azərbaycanda tətbiqini sürətləndirəcək xarici investorlarla, o cümlədən, "Swiss Re" şirkəti ilə əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.

O da məlumdur ki, Azərbaycanın sığorta bazarı o qədər də inkişaf etməyib. Sığorta ilə bağlı bir sıra problemlər var, bu sahənin inkişafı yönündə görüləsi, öyrəniləsi işlər var. Bu baxımdan dünyada məşhur "Swiss Re" sığorta şirkəti ilə əlaqələrin qurulması Azərbaycanda bu sahənin inkişafına nə kimi faydası ola bilər?

Məsələyə münasibət bildirən sığorta sahəsi üzrə ekspert Xəyal Məmmədxanlının sözlərinə görə, "Swiss Re" kimi şirkətin Azərbaycana gəlməsi, əlaqələr qurması ölkənin sığorta bazarının inkişafına ciddi müsbət təsir göstərə bilər: "Ümumilikdə, "Swiss Re" ilə yanaşı, Avropada aparıcı böyük sığorta şirkətlərinin Azərbaycana gəlməsi çox gözəl olardı. Ona görə ki, başda "Swiss Re" şirkəti olmaqla digər sığorta şirkətlərinin çox böyük təcrübələri var. Xüsusən də innovasiyalar, yeni sığorta məhsulları, yeni sığorta yanaşmaları sahəsində çox ciddi təcrübələri var. Düzdür, Azərbaycan sığorta şirkətləri onların bir çoxu ilə əməkdaşlıq edir. "Swiss Re" şirkətinin təkrar sığorta ilə bağlı təcrübəsi böyükdür. Azərbaycan şirkətlərinin əksəriyyəti qəbul etdikləri böyük risqləri Avropanın, Böyük Britaniyanın və yaxud da digər ölkələrin sığorta şirkətləri ilə bölüşdürürlər. Yəni təkrar sığorta yolu ilə risqlər bölüşdürülür.

**Xəyal Məmmədxanlı:** *"Swiss Re"nin gəlməsi Azərbaycanın sığorta bazarına çox böyük müsbət təsir göstərər"*




Bu nöqteyi-nəzərdən, əslində, "Swiss Re" ilə Azərbaycanın sığorta bazarının əlaqələri neçə ildir var. Bu əlaqələr sırf beynəlxalq sığorta münasibətləri çərçivəsindədir. Ancaq "Swiss Re" Azərbaycana gəlsə və onların burada nümayəndəliyi açılsa, bu, ölkə sığortaçılarının bilavasitə Avropa bazarına həm girişini rahatlaşdırar, həm də sığorta risqlərinin daha etibarlı və təminatlı qorunmasına şərait yaradacaq. "Swiss Re"nin gəlməsi Azərbaycanın sığorta bazarına çox böyük müsbət təsir göstərər. Xüsusən də təkrar sığorta bazarına".

***Vidadi ORDAHALLI***

# Ermənistanın Türkiyəni strateji üçbucağa salmaq planı alınmır - Ermənistan-Yunanıstan-Kipr sammiti iflasda...

**Ermənistan Kipr və Makedoniya məsələlərində Afina ilə Nikosiyaya tam dəstək vəd etmişdi. Bunun müqabilində Yunanıstanla Kipr ermənilərə Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsinə "hər formada yardımlar" edəcəklərini vurğuladılar. Digər razılaşma isə Yunanıstan, Kipr və Ermənistanın dövlət, yaxud hökumət başçıları səviyyəsində sammitin 2020-ci ilin yanvarında İrəvanda keçirilməsi ilə bağlı idi.**

***Hatəm Cabbarlı:** "Görüşün baş tutmaması tərəflər arasında müəyyən fikir ayrılıqlarının olması ilə əlaqəlidir"*

Yunanıstanla Kiprin Türkiyəyə qarşı qarşıdurmaya Ermənistanı da cəlb etməsi səbəblərindən biri də təbii qaz davasıdır. Şimali Kipr sahillərinin yaxınlığında kəşf edilmiş böyük təbii qaz yatağını Türkiyə istismar etmək niyyətindədir. Türkiyə həmin bölgəyə "Fatih" qazma gəmisini də yolladı. Yunanıstan bunu "Kiprin ikinci işğal cəhdi" adlandırıb və BMT ilə Avropa İttifaqından Türkiyənin qarşısının sərt şəkildə alınmasını tələb edib.

Elə həmin aralarda Türkiyəyə qarşı bir üçtərəfli alyans formalaşdı. Üç ölkə qərara gəldi ki, bu ilin 22 yanvarında görüşsünlər. Artıq Ermənistanın Xarici İşlər naziri bəyan edib ki, nəzərdə tutulan üçtərəfli görüş alınmayıb. Ermənistan mediasında görüşün alınmaması ilə bağlı fərqli fikirlər bildirilir. Hətta hesab edənlər var ki, üçtərəfli görüşün baş tutmaması regionda baş verən reallıqlarla bağlıdır. Bəs bizim ekspertlər bu barədə nə düşünürlər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyənin son bir neçə ildə Yaxın Şərqdə yaşadıqları problemlərlə paralel olaraq, Ağ dənizdə də müəyyən konfliktlərlə rastlaşmalı oldu: "Orada təbii qaz ehtiyatı müəyyən edildikdən sonra Türkiyənin təhlükəsizlik məsələsi həmin coğrafiyada da xüsusi yer tutmağa başladı. Türkiyə həmin ərazidə həm öz, həm də Şimali Kiprə aid sularda təbii qazın kəşfiyyat və qazma işləri ilə məşğul olur. Təbii ki, bu var-dövlətə sahiblik həm region, həm də regiondan kənar ölkələri narahat etməyə başladı. Türkiyə hələlik həmin bölgədə Yunanıstan və Səudiyyə Ərəbistanının təzyiqlərinə qarşı təkbaşına mübarizə aparır. Yunanıstan iddia edir ki, Türkiyə qazma işlərini ona aid hissədə aparır. Yunanıstan Ağ dənizdəki enerji qaynaqlarına sahib olmaq üçün özünə müttəfiqlər axtardı. Ermənistanla maraqları üst-üstə düşdüyü üçün belə bir ittifaqa qol qoyuldu. Ermənistan özü də Türkiyənin qazma işlərinə dəfələrlə etiraz edib. Hətta Yunanıstanın Xarici İşlər naziri Ermənistana səfər edib, bu məsələdə kənar dövlətlərin də dəstəyinə ehtiyac olduğunu dedi. Yanvar ayında keçirilən görüşün təxirə salınması ilə bağlı tərəflər açıqlama vermir. Hələlik belə görüşün gələcəkdə baş tutub-tutmayacağı da bəlli deyil. Ermənistan bu təşəbbüsün baş tutması üçün cəhdlərini davam etdirəcək. Ola bilər ki, görüşün baş tutmaması tərəflər arasında müəyyən fikir ayrılıqlarının olması ilə əlaqəlidir. Türkiyə bu məsələdə prinsipialdır. Kəşfiyyat işlərini hərbi gəmilərin müşayiəti ilə aparır. Orada əsəblər tarıma çəkilib və hər an hərbi qarşıdurmaya keçə bilər. Belə ittifaqların Türkiyənin mövqeyinə hər hansı təsiri olmaycaq. Rəsmən bəyan olunub ki, Türkiyə bu kəşfiyyat-qazma işlərindən əl çəkməyəcək. Görünən budur ki, Ermənistan bu missiyanın da öhdəsindən gələ bilmir".




**Məhəmmədəli QƏRİBLİ**

# Rusiya televiziyasından saxta erməniçilik ideologiyasına zərbə - azərbaycanlıların 1988-ci il "Qafan qırğını"nın üstü açılır

**Rusiyanın "Rossiya 1" telekanalında nümayiş olunan "İmperiyanın əsgəri" sənədli filmində məşhur rusiyalı yazıçı və jurnalist Aleksandr Proxanov Qafanda azərbaycanlıların necə təhqirlərə, işgəncələrə məruz qalmaları və doğma torpaqlarından qovulmaları faktlarından söhbət açıb.**

*"Həqiqətən də ilk əvvəl ermənilər azərbaycanlıları Qafan rayonundan sıxışdırıb qovdular"*

***Fikrət Sadıqov:** "Rusiya telekanallarında bununla bağlı verilişlərin getməsi erməni yalanlarının ifşa edilməsi baxımından əhəmiyyətli hadisədir"*

Onun sözlərinə görə, ermənilərin bu vəhşiliyindən sonra Qarabağ hadisələri başladı: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bir müddət əvvəl mənə Ermənistana, daha dəqiq desəm, azərbaycanlıların kompakt yaşadığı Qafan şəhərinə getmək nəsib oldu. Məhz orada mən erməni vəhşiliklərini öz gözlərimlə gördüm. Ermənilər azərbaycanlıları incidir, hətta onlara sudan belə istifadə etməyə imkan vermirdilər. Onları döyə-döyə, öldürə-öldürə Qafandan qovdular. Bu faciə ilk etnik təmizləmə idi. Azərbaycanlılar - uşaqlar, hamilə qadınlar, yaşlı insanlar, kişilər - ayaqyalın, acsusuz qarın üstündə qalaraq donmuşdular. Onlar öz doğma yurd-yuvalarından, torpaqlarından, kəndlərindən, bağlarından qovuldu".

O bildirib ki, bundan sonra Qarabağ müharibəsi başlayıb, ermənilər Azərbaycandan ayrılmaq, bu Azərbaycan ərazisini ələ keçirmək qərarına gəliblər: "Qorbaçov demişdi ki, qoy bu ziddiyyətləri müharibə gedən respublikalar və xalqlar özləri həll etsinlər. Bu, çox böyük bir səhv və cinayət idi".

Bu aralar erməni mətbuatında saxta silsilə yazılar yayılır ki, guya 1990-cı ilin 13-19 yanvarında ermənilər Bakıda qırğına məruz qalıb, ondan əvvəl Sumqayıt hadisələri olub. Ancaq Qafanda törədilən vəhşiliklər isə 1987-ci ilin sonları və 1988-ci ilin əvvəllərində baş verib. Hansı ki, onda hələ Qarabağ hadisələri baş verməmişdi. Bunu təkcə biz yox, Rusiya telekanalları da deyirlər. Bu isə saxta erməni ideologiyasına ciddi zərbədir.

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Rusiya telekanallarında bununla bağlı verilişlərin getməsi erməni yalanlarının ifşa edilməsi baxımından əhəmiyyətli hadisədir: "Bu onu sübut edir ki, əslində, ermənilər genosidlə məşğul olublar. Dinc insanları öz doğma yurdlarından qovublar, insanları qətlə yetiriblər. Özü də Qafan hadisələri 1988-ci ilin əvvəllərində başlayıb. Bunu təkcə biz demirik. Bunu Rusiya mənbələri də etiraf edirlər. Ermənilər, adətən, bütün hadisələri təhrif etmək istəyirlər. Ancaq real faktlar ermənilərin dediyi kimi deyil. Həqiqətən də ilk əvvəl ermənilər azərbaycanlıları Qafan rayonundan sıxışdırıb qovdular. Bu proseslər 1987-ci ilin sonundan başladı. 1988-ci ilin fevral ayından sonra isə azərbaycanlılar kütləvi şəkildə Ermənistandan qovuldular. Geniş miqyasda azərbaycanlılara qarşı etnik təmizləmələr başlandı. Nəticədə Ermənistandan 200 mindən çox azərbaycanlı öz dədə-baba yurdlarından qovuldu. Bir çox rayonda, o cümlədən, Qafanda azərbaycanlılar vəhşicəsinə qətlə yetirildi. Hərdən Paşinyan özündən uydurur ki, guya azərbaycnlıları dinc yolla oradan çıxarıblar. Belə təəssürat yaratmağa çalışır ki, guya çox sivil qaydada azərbaycanlılar oradan uzaqlaşdırılıblar. Ancaq faktlar bunun tam əksini göstərir. Qaçqınların bir çoxu qarlı dağları keçə bilməyib həlak olub. Deməyim odur ki, bütün hadisələrin başında ermənilər dayanırlar. Hadisələri ermənilər birinci törədərək etnik təmizləməyə start veriblər. Daha sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən azərbaycanlılar qovuldular. Ondan sonra üçüncü mərhələdə Qarabağın ətrafında yerləşən rayonlar işğal edildi".




**Vidadi ORDAHALLI**

# 80 saylı dairədən deputatlığa namizəd Vüqar Alkərəmov seçicilərlə görüşlərini davam etdirir













**Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən namizəd Alkərəmov Vüqar Oruc oğlunun seçicilərlə görüşləri davam edir.**

Yanvarın 23-də Beyləqan rayonunun Qaradağlı, Xalac, Bünyadlı, Gödəklər və Aşağı Çəmənli kənd sakinləri ilə görüşlər keçirilib.

Görüşlərdə ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə bütün sahələrin inkişafına çox ciddi diqqət və qayğı ilə yanaşdığı, hər bir sahənin inkişaf etdirilməsi çərçivəsində uğurlu siyasət apardığı bildirilib. Heydər Əliyevin qoyduğu irsin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi və nəticədə Azərbaycanın dinamik inkişafına mühüm töhvələr verdiyi vurğulanıb. Seçicilər ölkə rəhbərliyi tərəfindən aparılan siyasəti dəstəklədiklərini qeyd ediblər.

Həmçinin, görüşlər zamanı yerli əhalinin üzləşdiyi əsas problemlər və gələcək dövrlərdə müvafiq məsələlərin həll olunması istiqamətində görüləcək işlər müzakirə edilib.

# Deputat şərəfi və seçicilərin əlini öpmək kimi jestlərin uyğunsuzluğu...

**Parlament seçkiləri ilə bağlı aparılan təbliğat çərçivəsində olduqca maraqlı səhnələrin şahidi oluruq. Səmimi etiraf edək ki, bəzi namizədlərin apardığı seçki kampaniyası bəzən gülüş, bəzən isə haqlı lağ obyektinə çevrilir. Bunun da bir sıra obyektiv səbəbləri var.**




## *Samir Adıgözəlli: "Adamdan soruşarlar: sən dünənə kimi niyə bu addımı atmırdın?"*

Çünki işə peşəkarcasına yanaşmırlar. Seçki piarı ilə məşğul olan komandaları yoxdur. Əksər namizəd həm özü şüarlarını yazır, həm görüşə gedir, həm də telefonu ilə foto, videolarını çəkib sosial şəbəkədə paylaşır. Bunun nəticəsində ortaya gülməli mənzərə çıxır.

Amma qeyd edək ki, bəzən mənzərələrin heç də hamısı gülməli olmur. Elələri var ki, orada mənəviyyata aid problemlər də ortaya çıxır. Görürsən ki, hansısa namizəd gedib ucqar bir kənddə qoca nənənin əlini öpür və bu mənzərəni sosial şəbəkədə reklam məqsədilə paylaşır. Hətta həmin adamların sırasında hazırda deputat statusunu hələ də daşıyan adamları görəndə təəccüb hissi daha da artmış olur. Axı niyə Azərbaycanın şərəfli qurumunun təmsilçisi olan bir millət vəkili kiminsə əlini öpməlidir? Hətta həmin adam yaşlı şəxs olsa belə. Məqsəd seçicini ələ almağa hesablanıbsa, onda deputat və ya namizəd bunun üçün başqa taktikanı seçməlidir. Ən doğrusu isə bu olar ki, yaxşı fəaliyyəti, parlamentdəki gözəl çıxışları ilə seçicinin qəlbini fəth etsin. Bunu edə bilmirsə, 5 ildən bir gedib hansısa qoca xanımın əlini öpmək və ya digərini qucaqlayıb şəkil çəkdirmək eks effekt vermiş olur.

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bu sayaq jestləri bəyənmədiyini dedi: "Bunu o adamlar edir ki, seçiciyə deməyə sözü yoxdur. Bizim xalq arasında əl öpmək kimi jestə çox nadir hallarda rast gəlinir. Bunu daha çox filmlərdən seyr edirik və daha çox kiməsə beyət etmək mənasında həmin addımın atıldığını görürük. Namizəd kişidirsə, elə seçiciyə kişi sözü versin və buna əməl etsin. Bir çoxu bu sözü verir, amma əməl etmir. Ona görə də seçicinin üzünə çıxmağa cürəti çatmır. Bir neçə namizədin kəndlərdən qovulduğunu eşitmişəm. Hesab edirəm ki, belə şouların göstərilməsinin ziyanı daha çox elə həmin namizədin özünə dəyir. Bu gülünc gedişləri yığışdırmaq lazımdır.

Bu yaxınlarda bir icra başçısını rüşvət qalmaqalına görə həbs etdilər. Həmin kadrlar açıq translyasiya olundu. Səhəri gün başqa bir rayonun icra başçısı gedib kəndlərdə görüş keçirib, yaşlı adamların əlini öpürdü. Adamdan soruşarlar: sən dünənə kimi niyə bu addımı atmırdın? Bu səbəbdən də səmimi görünmür".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın hakimiyyəti ilə siyasi əməkdaşlıq edən təşkilatların sayı sürətlə azalır...

**Hadisələrin real inkişaf axarı işğalçı Ermənistanda yeni böhran dalğasının yarandığını göstərir. Özü də bu dəfə böhranın əsas mərkəzi qismində baş nazir Nikol Paşinyanın komandası çıxış edir.**



Paşinyanın anlaşılmaz siyasəti, ziddiyyətli davranışları, xüsusən də verdiyi vədlərin heç birini yerinə yetirməməsi təkcə əhali yox, komandası arasında da ona etimadı azaldıb. "İrates" qəzeti yazır ki, artıq Nikol Paşinyanın öz komandasının üzvlərinə etimadsızlığı hər keçən gün bir az da dərinləşir: "Bizim məlumatımıza əsasən, Paşinyanı daha çox komandasının bəzi üzvlərinin digər siyasi qüvvələrlə oyunlara başlaması və sərfəli anda öz düşərgələrini dəyişib, onu tək qoyacağı narahat edir".

Məlumatda Paşinyanın komandasında bəzi şəxslərin Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri Artur Vanetsyandan daha betər olduğu və onların daha pis şeylər etiraf edə biləcəyi vurğulanıb. Qeyd olunub ki, "Mənim Addımım" Blokunun deputatları arasında Vanetsyanın adamları var və sabiq kəşfiyyat şefinə kömək edirlər. Erməni siyasi ekspert Armen Badalyan da qeyd edilənləri istisna etmir. O bildirib ki, Nikol Paşinyanın qurduğu siyasi sistem Vanetsyanın timsalında siyasi alternativə dözməyəcək. Badalyan qeyd edib ki, Vanetsyanın Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifəsindən uzaqlaşmaq barədə birmənalı olmayan bəyanatından sonra o nisbətən passiv mövqedə olsa da, siyasi sahədədir. Bu da Paşinyanı ciddi narahat edir və bu səbəbdən baş nazir Vanetsyanı, ətrafını müxtəlif üsullarla zərərsizləşdirməyə çalışır. Artur Vanetsyan özü isə məsələyə belə münasibət bildirib ki, nifrət və daxili düşmənçilik istənilən ölkə üçün böyük təhdid kəsb edir: "Ermənistanın yarımhərbi vəziyyətdə olması baxımından onun təhlükəsizliyi və gələcəyi üçün bu öldürücü ola bilər. Dayanmaq lazımdır". Amma erməni mediası onu da yazır ki, Vanetsyan Paşinyanın adamlarını ələ almaqda davam edir. "Joxovurd" qəzeti də bu xüsusda "Mənim Addımım" blokundan olan deputatlarla görüşüb. Paşinyanın blokundan olan deputatlarla fraksiyadan 20 deputatın ayrılması xəbərinin yayılmasıyla əlaqədar görüşdüyü bildirilib: "Deputatların fraksiyadan ayrılacağı xəbəri Paşinyana qədər çatıb. O bunun üçün bütün fraksiya üzvlərini toplayıb və parlamentdəki komandası ilə daha ciddi məşğul olmaq qərarına gəlib. Məsələ odur ki, fraksiyadakı situasiya ilə bağlı baş naziri fraksiya rəhbəri Lilit Makunts və fraksiyanın katibi Akop Simidyan məlumatlandırıb. Məhz buna görə o, deputatlarla şəxsən görüşmək qərarına gəlib. Amma buna rəğmən, bəzi deputatlar Paşinyandan ayrılmaqda israrlıdır".

Erməni mediası yazır ki, ölkədə hazırkı hakimiyyətlə əməkdaşlıq edən siyasi qüvvələrin sayı durmadan azalır. Hətta hakimiyyət dəyişikliyini alqışlayan, son ilyarımlıq müddət ərzində hakimiyyətin bütün addımlarını dəstəkləyən, təsdiqləyən siyasi xadim və partiyalar bu gün ya susur, ya da hakimiyyətdən uzaqlaşıb və öz narazılıqlarını gizlətmir. "Daşnaksütyun", "Çiçiklənən Ermənistan", "İşıqlı Ermənistan" partiyaları keçmiş reveransları çoxdan bir kənara qoyub açıq şəkildə hakim qüvvəyə qarşı çıxır. Əsas xadimlər və 2018-ci ildə "Vətəndaş Müqaviləsi" partiyasına seçkilərdə iştirak etməkdən imtina etmiş "Erməni Milli Konqresi"nin lideri Levon Ter-Petrosyan uzun müddət danışmayıb, konstitusiya dəyişikliklərində isə "Erməni Milli Konqresi"nin verdiyi təklif hakimiyyət tərəfindən rədd edildikdən sonra baryer daha da dərinləşəcək. "İrs" partiyası bəyanatla çıxış edərək hakimiyyətdən narazılığını bildirir. Halbuki, "İrs" partiyası ötən müddət ərzində hakimiyyətlə əməkdaşlıq edib.

İndi partiyanın bəyanatında qeyd edilir ki, hakimiyyətin bütün qanadlarında - məhkəmə, qanunverici və icraedici orqanlarda idarəetmə böhranı dərinləşir, səhvlər və onların yönləndirilməsinin bir nömrəli cavabdehi isə Nikol Paşinyandır. O, məhkəmə, qanunverici və icraedici orqanların işini islah etmək üçün addımlar atmalıdır. "İrs" partiyası həmçinin qeyd edib ki, Ermənistanda həqiqətən də böhran dərinləşir və mehribancasına təmin edilmiş insanlar belə bunu görürlər.

"Vətəndaş Şüuru" ictimai təşkilatının sədri Narek Samsonyan bu vəziyyətdə Paşinyan iqtidarının sonunun tezliklə çatacağını bildirir:"Deməli belə, Nikolcan, anlaşılandır ki, çox yaxın zamanda hakimiyyətdən qovulmanı hiss edəcəksən və həm də şəxsən sənin qaçmaq üçün yerin var, lakin hər şeyi dramatikləşdirmə".

**O qeyd edib ki, Paşinyan çox gözlənilməz və çox qısa zamanda gedəcək: "Bu günlərdə "Yerkir TV"nin baş redaktoru "Pravda" qəzetində növbəti "pis xəbər"ini çap edib ki, "xarici dəstəklə çevriliş edəcəklər". Sən könüllü şəkildə hakimiyyətdən uzaqlaşdırılacaqsan, öz əşyalarını toplayacaqsan və Kerenski kimi imici dəyişdirilmiş şəkildə ölkədən qaçacaqsan".**

***Tahir TAĞIYEV***

# NATO Gürcüstan - Rusiya münasibətlərində yeni mərhələ hazırlayır - Rusiyanın 200 kilometrlik əraziləri Alyans dronlarının müşahidəsi altında...

**Rusiya və NATO arasında gərginləşən münasibət yenidən Qafqazda növbəti gərginliyə yol aça bilər. Hər halda, hadisələrin inkişaf axarı məhz bu istiqamətdə gedir. Məsələ bundadır ki, NATO bu il Gürcüstanda hərbi kontingent yerləşdirmək niyyətindədir.**

Hərbi qüvvələrin 2020-ci ildə həyata keçiriləcək "Avropanın müdafiəçisi - 2020" təlim layihəsi çərçivəsində Gürcüstana gətiriləcəyi gözlənir.

Məlumata görə, layihə çərçivəsində NATO Gürcüstandan əlavə Baltikyanı ölkələrə, Almaniya və Polşaya da hərbi qüvvələr yerləşdirəcək. Qeyd edilir ki, təlimlər NATO-nun hərbi gücünün yoxlanması məqsədi daşıyır. Təlimlərlə əlaqədar ABŞ Avropaya 20 min hərbçi göndərəcək. Bu, ABŞ-ın son 25 ildə Avropa ölkələrinə göndərdiyi sayca ən böyük qüvvə olacaq. Ən böyük kontingentin isə Polşa ərazisində yerləşdiriləcəyi bildirilir. Ümumilikdə "Avropanın müdafiəçisi - 2020" hərbi təlimlərində 18 ölkədən 37 min hərbi qulluqçunun iştirakı gözlənir.

Bundan başqa, NATO Gürcüstan kimi Rusiyaya yaxın ölkələr vasitəsilə Rusiyaya nəzarəti də gücləndirməyə çalışır. NATO baş katibi Yens Stoltenberq bildirir ki, bu məqsədlə NATO-nun ilk pilotsuz hava kəşfiyyatı sistemi Rusiyanın daxili ərazilərinə nəzər yetirməyə imkan verəcək. O bu dronların Rusiyanın 200 kilometrliyinə qədər daxil olmaq imkanına sahib olduğunu bildirib. Stoltenberq bu sistemlərin NATO-ya qonşu ölkələrdə baş verənləri görməyə imkan verəcəyini açıqlayıb. Yens Stoltenberq onu da vurğulayır ki, NATO ilin sonuna qədər Rusiyanın "İsgəndər" komplekslərini yerləşdirməsinə cavab verəcək: "İsgəndər"lərə gəlincə, biz hava hücumundan müdafiə və raket əleyhinə sistemlər, ənənəvi silahlar, döyüş hazırlığı vəziyyətinin yüksəldilməsi üzərində çalışırıq. NATO müdafiə nazirləri artıq belə işlərin şərtləri barədə razılaşıblar". Rusiyanın Xarici Əlaqələr Şurasının eksperti Dmitri Stefanoviç Yens Stoltenberqin Rusiyanın "İsgəndər" raketləri ilə bağlı açıqlamasını şərh edərkən deyib ki, NATO "adi silahlar" adı altında Avropada yeni qanadlı və ballistik raketlər yerləşdirə bilər. O bildirib ki, belə silahlara misal olaraq ATAMKS kompleksini əvəz edəcək "Presişn Strayk Misl" sistemini göstərmək olar. Ekspert bu raketlərin mənzilinin 500 kilometrə çatacağını istisna etməyib: "Vaşinqton aktiv şəkildə bu tip silahın modernləşdirilməsi ilə məşğuldur". Ekspert NATO qüvvələrinin, xüsusən teztez Gürcüstanda peyda olmasının da Rusiyanı qıcıqlandırdığını bildirir. Vaşinqtonda qeyd edirlər ki, təhlükəsizlik sahəsində Gürcüstanla münasibətlər ABŞ-ın Cənubi Qafqaz siyasətində ən mürəkkəb elementidir. Vaşinqton, həmçinin, ölkənin NATO-ya üzv olmasına dəstək olacağını bəyan edib. ABŞ Gürcüstanın NATO üzvlüyündə qətiyyətlə israr edir və dəfələrlə Alyans Gürcüstanı inandırmağa çalışıb ki, təşkilatın qapıları onun üzünə həmişə açıqdır. Amma keçmiş SSRİ respublikalarının NATO-ya qoşulmasının qarşını almaq məqsədilə Rusiyanın müharibəyə başlamağa hazır olduğunu nümayiş etdirməsi məsələni qəlizləşdirir. Hər halda, 2008-ci ildə Gürcüstanla, 2014-cü ildə Ukrayna ilə baş verən savaşlar bunun real təsdiqidir. Rus hərbi ekspert Aleksandr Xrolenko da qeyd edir ki, bu fonda yeni təlimlər gürcü tərəfinə baha başa gələ bilər: "Şimali Atlantika Alyansının Gürcüstanda keçirməyə hazırlaşdığı təlimlər növbəti dəfə ABŞ-ın Gürcüstanı Rusiya ilə hərbi münaqişəyə itələdiyini nümayiş etdirir. Təlimlərin bəyan edilmiş məqsədi üzv ölkələr arasında birlikdə işləyə bilmək qabiliyyətini artırmaq, əməliyyatların planlaşdırılması və icrasında əməliyyat qabiliyyətlərinin gücləndirilməsidir. Belə təlimlər ümumilikdə çiçəklənən dinc bölgədə sabitliyin pozulmasına xidmət edir. Təlimlərdə regional sabitliyin ciddi qarantı olan ölkələrin iştirak etməməsi təsadüfi deyil. ABŞ və Gürcüstanın da Qafqaz regionunda yeganə düşməni Rusiya və onun müttəfiqləridir. Bu fonda NATO-nun Gürcüstan təlimləri son dərəcə qeyri-müəyyən görünür və hərbi oyunların bütün iştirakçıları üçün fəsadlarla nəticələnə bilər. Əslində isə Tiflisə "əzələ nümayişi" praktiki olaraq mövcud deyil: respublikanın qərbindən şərqinədək olan məsafə 400 kilometrə qədərdir, şimalından cənubuna qədər olan məsafə isə 200 kilometrə qədər. Poliqonlarının imkanları isə yalnız hərbi-polis əməliyyatlarını həyata keçirməyə imkan verə bilər.




Tiflisdə revanşist siyasət tərəfdarları reallıqdan kənara çıxa bilməzlər. "Üsyançı" gürcü qonşularının təhlükəsizliyi Rusiya Federasiyasının, başda nüvə silahları olmaqla, bütün iqtisadi və hərbi gücünə bağlıdır. Gücrüstanda təlimlərin iştirakçıları bu faktı nəzərə alırmı?

Lazım gəldiyi təqdirdə Rusiya Federasiyası öz ərazisindən yüzlərlə kilometr uzaq məsafədə, məsələn, Suriyada terrorçularla mübarizədə gücünü effektiv şəkildə yönləndirməyi bacarır. Bir gün alyansın "əzələləri" Gürcüstanda Rusiya sərhədləri yaxınlığında keyfiyyət dəyişikliyinə uğrasa, gürcülər yalnız möcüzəvi xilasa ümid edə bilərlər. Rusiya dəfələrlə Gürcüstanın NATO-ya üzvlüyü ilə onunla yaxşı münasibətlərin bərpasının bir araya sığmadığını bəyan edib. Qərblə hərbi manevrlər Gürcüstan dövlətinin uçuruma qədərki addımlarıdır. Bir daha xatırladıram ki, 2008-ci ilin avqustunda Gürcüstana Birləşmiş Ştatlar kömək eləmədi". Bütün bunlar Qafqazda gərgin vəziyyətin hökm sürəcəyini istisna etmir.

***Tahir TAĞIYEV***

# İlham Əliyev Davosda Yaxın Şərqin müharibə ocaqlarının söndürülməsi reseptini təklif etdi - supergüclərə çağırış...

***Mübariz Əhmədoğlu:*** *"Dünyanın supergücləri bu çağırışdan nəticə çıxarıb, əminamanlığın təmin olunması istiqamətində gərəkli addımları atmalıdırlar"*

**Prezident İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında moderatorun suallarını cavablandırarkən bizim regionumuz üçün bütün təhdid mənbələrinin tam coğrafiyasını təqdim etməklə yanaşı, həm də dünyanın diqqətini regionumuzda əsas təhlükə mənbəyi kimi erməni təcavüzünün durdurulmasına yönəltmiş oldu.**

Prezident qaynar nöqtələrdə artan gərginliyə görə supergüclərin məsuliyyət daşıdığını qeyd edib.

Dövlət başçısı bildirib ki, regional vəziyyəti və yeni yaranmaqda olan münaqişə zonalarını nəzərə alaraq hazırda ən vacib olan məsələ regional sabitlikdir: "Ölkədə bizim daxili risqlərimiz yoxdur, istər siyasi risqlər olsun, istər iqtisadi. Ölkə sabitdir, inkişaf davamlıdır. Bizim həyata keçirilməkdə olan və xalqımız üçün böyük imkanlar yaradan çox geniş islahatlar gündəliyimiz var. Ən böyük narahatlıq və əsas potensial kabus sərhədlərimizin xaricində gərginliyin artması olardı. Bunun üçün biz məsuliyyət daşımırıq. Təəssüf ki, biz bu prosesə tam olaraq təsir edə bilmərik. Məsuliyyəti bu kövrək sabitliyin daha da sarsılmaması üçün öz aralarında müəyyən məsələlərlə bağlı razılığa gəlməli olan supergüclər daşıyacaq.

Bilirsiniz, biz bu gərginlikləri sərhədlərimizin yaxınlığında görürük. Biz Əfqanıstanda gərginlikləri görürük, biz orada həll edilməmiş vəziyyəti görürük. Biz özümüz Ermənistan tərəfindən işğala məruz qalmışıq və bu, daimi təhdid mənbəyidir. Ərazilərimizin, demək olar ki, 20 faizi beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olaraq Ermənistanın işğalı altındadır. Biz ABŞ-İran münasibətlərində gərginliyin kəskinləşməsinin şahidi oluruq. Regionda artıq baş qaldırmaqda olan bir çox qaynar nöqtələr potensial təhdidlərdir. Ona görə də biz sərhədlərimizin xaricində təhlükəsizliyin və müəyyənliyin olmasında çox maraqlıyıq. Çünki hətta Azərbaycandan kənarda olan iqtisadi çətinliklər bizim iqtisadi və sosial vəziyyətimizə təsir edə bilər. Buna görə də düşünürəm ki, regionda sabitliklə bağlı vəziyyət bizi narahat edən əsas məsələdir və belə deyə bilərəmsə, regionda qeyri-sabitlik əsas kabusdur".

Ölkə başçısının supergüclərə məsuliyyətlərini müəyyən etmələri ilə bağlı verdiyi mesajın nə kimi əhəmiyyəti var?

Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bəşəri əhəmiyyətli bir fikrin məhz İlham Əliyev tərəfindən səsləndirilməsinin bir sıra səbəbləri var: "Bununla bir daha sübut olunur ki, Azərbaycan regionun aparıcı ölkəsidir. Cənubi Qafqazın aparıcı aktor ölkəsi



kimi bizi yalnız öz sərhədlərimiz daxilində baş verənlər deyil, eyni zamanda, sərhədlərimizə yaxın coğrafiyada baş verən qaynar proseslər narahat edir. Belə çağırışı etməklə Prezident həm də bir cəsarət nümunəsi ortaya qoymuş olur. Bunu hamı bilir, ancaq çox adam dilə gətirməyə cəsarət etmir. Bəli, bu gün Yaxın Şərqdə baş verən hadisələr dünyanın supergüclərinin müharibəsidir. Tarixdə hər zaman belə olub. Böyük müharibələr dünyanı yenidən bölüşdürmək səbəbilə alovlanıb. Ən maraqlısı budur ki, həmin güclər münasibətlərinin aydınlaşdırılması, yeni silahlarını sınaqdan çıxarmağın poliqonu kimi öz sərhədlərindən uzaq məsafələri seçirlər. Ancaq həmin qaynar ocaqlar bizə yaxındır. Bundan Azərbaycanın da zərər çəkə bilmə ehtimalı çoxdur. Məhz İranla ABŞ arasındakı müharibə vəziyyəti də Yaxın Şərqdəki maraqların toqquşmasından alovlanıb. Bizmlə birbaşa sərhədi olan ölkədir. Orada müharibə başlasa, ən böyük ziyanı da biz çəkərik. ABŞ-ın belə siyasəti var. Özlərində vəziyyət gərginləşən kimi başqa ölkələrdə xaos yaradırlar ki, dünyanın başı ora qarışsın. Ancaq bu, bizi narahat edir. Prezidentin çağırışı yalnız bizim üçün deyil, bütün bəşəriyyət üçün əhəmiyyətlidir. Çünki sülhün təmin olunmasına hesablanıb. Dünyanın supergücləri bu çağırışdan nəticə çıxarıb, əminamanlığın təmin olunması istiqamətində gərəkli addımları atmalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Dağlıq Qarabağa qanunsuz gələnlər ən çox Rusiya, ABŞ və Fransa vətəndaşlarıdır - Paradoks...

***Əli Orucov:*** *"Bu onu göstərir ki, həmsədr ölkələr belə qanunsuz səfərlərin qarşısını almaqda maraqlı deyillər"*

**Azərbaycanın işğal altındakı torpaqlarına qanunsuz səfər edən əcnəbilərlə bağlı statistika açıqlanıb. Erməni mediasının yaydığı məlumata görə, qondarma Qarabağ rejiminin "mədəniyyət, gənclər və turizm naziri" Lernik Ovanisyan 2019-cu ilin yanvarından dekabr ayına qədər işğal altındakı torpaqlara 41 min 963 əcnəbinin səfər etdiyini bildirib.**




O bu rəqəmin əvvəlki illə müqayisədə çox olduğunu bildirib. Qeyd edib ki, 2018-ci ildə 28 min 588 nəfər Qarabağa səfər edib.

Qarabağa qanunsuz səfər edənlərin 19160 nəfəri Rusiya, 7527 nəfəri ABŞ, 1661 nəfəri Fransa, 765 nəfəri Almaniya, 699 nəfəri Livan, 685 nəfəri Polşa, 671 nəfəri Çin, 594 nəfəri Argentina, 575 nəfəri Kanada və 568 nəfəri isə Suriya vətəndaşıdır.

Paradoks doğuran məqam ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk Qrupunun həmsədrləri - Rusiya, ABŞ və Fransa vətəndaşları Azərbaycan qanunvericiliyinə ən çox hörmətsizlik göstərib. Məhz ən çox həmsədr ölkələrdən Qarabağa qanunsuz səfərlərin edilməsi heç bir məntiqə sığmır. Məsələ ondadır ki, sözügedən ölkələr münaqişənin həlli ilə bağlı vasitəçilik missiyasını öz üzərlərinə götürdükləri üçün, məhz onlar bu məsələdə daha diqqətli olmalıdırlar. Çünki Qarabağ işğal altında olsa da, beynəlxalq qanunlara görə Azərbaycan ərazisi hesab olunur. O cür qanunsuz səfərlər Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir. Bu baxımdan başlıca olaraq həmsədr ölkələr belə qanunsuz səfərlərdən uzaq durmaqla bağlı öz vətəndaşlarına müraciət etməlidirlər. Ancaq biz bunun tam əksini görürük.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Dağlıq Qarabağa qanunsuz səfər edən əcnəbi vətəndaşların böyük hissəsinin həmsədr ölkələrin vətəndaşlarından ibarət olması böyük təəssüf doğurur: "Zatən, həmsədrlərin fəaliyyəti arzuolunan səviyyədə deyil. Minsk Qrupu həmsədrləri vasitəçilik missiyası adı altında pərdələnərək, əslində, problemin həllini ləngidirlər. Onlar, sadəcə, status-kvonu qoruyub saxlamağa çalışırlar. Minsk Qrupu həmsədrləri təcavüzdən danışır, amma təcavüzkarın adını çəkməyə cəsarəti çatmır. Hətta onlara sual verəndə də təcavüzkar dövlət kimdir, cavab verirlər ki, bunu müəyyən etmək tarixçilərin işidir. Həmsədrlərin əsas fəaliyyəti ona yönəlib ki, növbəti genişmiqyaslı hərbi əməliyyatlar olmasın. Həmsədrlər doğrudan da münaqişənin həllində maraqlı olsaydılar, o zaman başqa cür mövqe sərgiləyərdilər. Ən azından, Dağlıq Qarabağa qanunsuz səfərlərin edilməsini pisləyən bəyanatlarla çıxış edərdilər.

**Yaxud da öz vətəndaşlarına rəsmi çağırışla müraciət edib deyə bilərdilər ki, Dağlıq Qarabağa qanunsuz səfər etməyin. Belə bir təşəbbüslə çıxış etsəydilər, o zaman Qarabağa qanunsuz səfər edənlərin sayı bu qədər çox olmazdı. Həmsədrlər nəinki bunu etmir, buna heç həvəs də göstərmirlər. Bu onu göstərir ki, həmsədr ölkələr belə qanunsuz səfərlərin qarşısını almaqda maraqlı deyillər".**

***Vidadi ORDAHALLI***

# "LUKoil"un Azərbaycanda yeni fəallaşmasının maraqlı kommersiya tərəfləri...

**Azərbaycan əsilli milyarder Vahid Ələkbərovun rəhbəri olduğu "LUKoil" şirkəti son dövrlərdə həm ölkəmizə, həm də ümumilikdə Xəzərə xüsusi diqqət yetirməyə başlayıb.**

Artıq bunların nəticəsi olaraq, bu günlərdə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "LUKoil" şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" perspektiv strukturu, dənizin dayazsulu hissəsində "Xəzəryanı-Quba" və "Qoşadaş" perspektiv strukturlarını əhatə edən kəşfiyyat blokuna dair Anlaşma Memorandumu imzalanıb.

Qeyd edək ki, "Naxçıvan" perspektiv strukturu Xəzər dənizinin Azərbaycan sektorunun dərin hissəsində yerləşir. Strukturun yerləşdiyi rayonda dənizin dərinliyi 120 metrdən 750 metrə qədər dəyişir. "Qoşadaş" strukturu Xəzər dənizinin Azərbaycan sektorunda, Sumqayıt şəhərindən 20 kilometr şimal-şərqdə yerləşir. Bu yataqların birgə işlənməsi, xüsusən də "LUKoil"un bura sərmayə yatırması hər iki tərəf üçün sərfəli sayılır. İqtisadçı Rəşad Həsənov da qeyd edir ki, son zamanlar dünya birjalarında neftin qiymətinin artması "LUKoil" şirkəti üçün də investisiya imkanları yaradıb. Bu baxımdan "LUKoil" şirkətinin Azərbaycanda fəaliyyətini genişləndirməsi müəyyən mənada neft sektorunda canlanmaya səbəb ola bilər. Onun sözlərinə görə, "LUKoil" kifayət qədər tanınan və öz sözünü demiş bir neft şirkətidir: "LUKoil" neft şirkəti Azərbaycanla yaxından maraqlanan və məlumatı olan, əlaqələrə malik bir şirkətdir. Onu da qeyd edim ki, Azərbaycanda son zamanlar neft hasilatı azalmaqdadır və azalan neftin kompensasiyası üçün nisbətən daha dərinlikdəki yataqlardan neftin çıxarılmasına ehtiyac var. "LUKoil" şirkətinin digər bir önəmli cəhəti də təsisçisinin Azərbaycan əsilli olmasıdır. Düşünürəm ki, bu baxımdan "LUKoil"un fəaliyyətini genişləndirməsi ölkəmiz üçün uğurlu olacaq. Ümumiyyətlə, hökumətin gələcəyə yönəlik planı ondan ibarətdir ki, Xəzərin mövcud potensialından maksimum dərəcədə istifadə olunsun". "LUKoil"un Azərbaycana yatıracağı yeni sərmayələr isə Davosda prezident İlham Əliyevlə Vahid Ələkbərov arasında əldə olunan razılığın nəticəsidir.

Digər tərəfdən Rusiya ilə Belarus arasında yaranan neft ziddiyyəti fonunda "LUKoil"un da müəyyən zərərə düşməsi müşahidə olunur. Şirkət bu zərəri məhz Azərbaycanla işbirliyi hesabına aradan qaldıra bilər. Elə bu da "LUKoil"un Azərbaycana marağını artırır. Vahid Ələkbərov özü məsələ ilə bağlı bildirir ki, "LUKoil" neft sahəsindəki vergi manevrləri ucbatından Belarusun yaranan itkilərini hansısa formada kompensasiya etmək fikrində deyil: "Biz kommersiya şərtləri ilə işləyirik. Vergi manevri Rusiya Federasiyasının neft şirkətlərinin təşəbbüsü deyil. Biz Belarus kimi qurbanıq. Ona görə də biz bu itkiləri kompensasiya etməyə hazırlaşmırıq. Bu, hökumətlərarası münasibətlərdir". Bunun əvəzində isə "LUKoil" Xəzərdə fəaliyyətini genişləndirir. Artıq o da sirr deyil ki, şirkət Xəzərdə fəaliyyətini daha çox Azərbaycan və Qazaxıstanla qurur. O da məlumdur ki, yuxarıda adları çəkilən müqavilələrlə yanaşı, "LUKoil" Azərbaycan və Qazaxıstan şelflərində yeni geoloji-kəşfiyyat bloklarını da öyrənir. Vahid Ələkbərov özü bu xüsusda bildirib: "Biz Azərbaycanda yeni geoloji-kəşfiyyat bloklarını nəzərdən keçiririk, onların üzərində SOCAR-la birlikdə çalışırıq. Biz Xəzər dənizi ərazisində inkişaf etməkdə maraqlıyıq. Qazaxıstanla danışıqlar aparırıq. "Jenis" bloku üzrə sənədlər imzalanıb, birgə müəssisənin yaradılmasına dair sənədlər hazırlanır. Qazaxıstan şelfində daha bir sıra bloklar hazırlanır. Biz Xəzəri anlayırıq və əldə etdiyimiz təcrübəni nəinki Rusiya, həm də Azərbaycan və Qazaxıstanda tətbiq etmək istərdik".

"Neft" Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban isə hesab edir ki, "Naxçıvan" perspektiv strukturu, dənizin dayazsulu hissəsində "Xəzəryanı-Quba" və "Qoşadaş" perspektiv strukturlarını əhatə edən kəşfiyyat işlərinin "LUKoil" ilə birgə həyata keçirilməsi önəmlidir: "Çünki bu sırf kommersiya layihəsidir. İndi Azərbaycanda Qərb neft şirkətlərindən tutmuş, İran neft şirkətinə qədər qurumlar çalışır. İndiyə kimi hər hansı ölkənin təsiri hiss edilməyib, sadəcə, pul qoyub, pul götürürlər. "Qoşadaş" neft yatağı bundan öncə "Rosneft" şirkətinə də təklif olunmuşdu. Bir ilə yaxın tədqiqat apardıqdan sonra fikirlərindən vaz keçdilər. Ümumiyyətlə isə, "Qoşadaş" mürəkkəb xarakterli yataqdır. İndi "LUKoil"un ona maraq göstərməsi müsbət haldır. "LUKoil"un dənizdə neft təcrübəsi var.




**Xəzərin Rusiya hissəsində "LUKoil" 7 milyon tondan artıq neft hasil edib. 2015-ci ildən etibarən bir hissəsini də Bakı-Tiflis-Ceyhan neft kəməri vasitəsilə nəql edir". İ.Şabana görə, "Naxçıvan" yatağının adının çəkilməsi də çox maraqlıdır. O əlavə edib ki, bu, Xəzərin dərinsulu hissəsindədir. Ekspert vurğulayır ki, 2000-ci illərin əvvəlində orada kəşfiyyat işi aparılıb: "Amma kommersiya ehtiyatları tapılmamışdı. Təqribən 20 ildən sonra bu yataqda nəsə tapılsa, ölkə üçün böyük töhfə olar".**

***Tahir TAĞIYEV***

**Cəbhə zonasında tez-tez atəşkəsi pozan Ermənistanda bu gün yenə ən xaotik halın hökm sürdüyü sahələrdən biri ordudur. Burada baş verənlər orduda cinayət hallarının yenə böyük sürətlə artdığını nümayiş etdirir. Belə bir vaxtda yayılan məlumata əsasən, işğal altındakı Dağlıq Qarabağ bölgəsində yerləşən Ermənistan Müdafiə Nazirliyinə məxsus hərbi hissədə silahlı insident baş verib.**

# Ermənistan ordusunda silahlı qətllər "virus effekti" ilə yayılır...

"Sputnik Ermənistan" bildirir ki, Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovannisyan faktı təsdiq edib. Onun sözlərinə görə, naməlum şəraitdə iki əsgər - 2001-ci il təvəllüdlü Henri-Ayk Zakaryan və 2000-ci il təvəllüdlü Armen Mesropyan silahdan açılan atəş nəticəsində yaralanıb. Ovannisyan Zakaryanın vəziyyətinin ağır olduğunu bildirib. Ermənistanın "shamshyan.com" nəşri yaralıların 2 yox, 3 nəfər olduğunu bildirir. Nəşr qeyd edib ki, onlardan birinin vəziyyəti ağırdır. Məlumata görə, vəziyyəti ağır olan erməni hərbi qulluqçu naməlum səbəblərdən digər iki hərbi qulluqçuya doğru atəş açaraq onları yaralayıb. Daha sonra silahı özünə tərəf tutaraq atəş açıb. Orduda belə şəraitdə itkilərin artması isə əsgər valiydeynlərinin Nikol Paşinyan iqtidarından narazılığını artırır. Elə bu günlərdə Ermənistanın hərbi hissələrində intihar adı qoyularaq öldürülən 25-ə yaxın əsgərin yaxınları İrəvanda hökumət binası qarşısında oturaq aksiya keçirir. Çıxılmaz vəziyyətdə olduqlarını deyən etirazçılar əsgərlərin ölümü ilə bağlı şikayət etdikləri bütün qurumlardan rədd cavab aldıqlarını bildirirlər. Etirazçılar baş nazir Nikol Paşinyanla görüşlərinin də nəticə vermədiyini deyirlər. Ermənistan ordusunda xaosun hökm sürdüyünü bildirən aksiya iştirakçıları qeyd edirlər ki, zorakılıqla bağlı xeyli faktın olmasına baxmayaraq, bunun qarşısı alınmır.

Sonuncu belə hadisə Dağlıq Qarabağ bölgəsində qanunsuz dislokasiya olunan hərbi hissələrdən birində baş verib. Zabit tərəfindən zorakılığa məruz qalan əsgər bu barədə ailəsinə məlumat verib. Yaxınları dərhal vəkil tutaraq məsələni ictimailəşdiriblər. Bundan sonra əsgərin hərbi hissəsi dəyişdirilib. Ailə indi zabitin həbs olunmasına çalışır. Amma hələ ki, onların cəhdi istənilən nəticəni vermir. Özü də orduda təkcə əsgərlər yox, həm də zabitlər işgəncə və zorakılıq qurbanıdır. Polkovnik-leytenant Ara Mxitaryan ətrafında baş verənlər bunun real təsdiqidir. Xatırladaq ki, Ara Mxitaryan ötən ilin sentyabrında Vayots Dzor vilayətinin Yeğeqnadzor şəhərində amansızlıqla döyülüb. Onun atası Samvel Mxitaryan məsələ ilə bağlı bildirir: "Hadisənin başvermə tarixindən 4 ay keçsə də, istintaq yerindən tərpənmir. Cinayəti törədənlər bilərəkdən müəyyənləşdirilmir və ifşa edilmir". O qeyd edib ki, Paşinyan hadisənin təfərrüatının tam açılacağı və günahkarların cəzalandırılacağına vəd versə də, buna əməl edilməyib.



Hadisənin baş verdiyi ilk vaxtlarda törədilən cinayətə görə sabiq vilayət rəhbərinin köməkçisi Harutyun Qriqoryan və onun qardaşı Zaven Qriqoryanın həbs edildiyi, ancaq bu günədək hadisənin digər iştirakçılarının müəyyən edilmədiyi qeyd edilir. Vayots Dzor vilayətinin kiçik bir şəhərdə baş verən cinayətin üstünü açmaq və günahkarları məsuliyyətə cəlb etmək qarşısında aciz olduqlarının anlaşılmazlığı vurğulanır.

Döyülən erməni hərbi qulluqçunun atası hadisənin ətraflı araşdırılmasına mane olan şəxsin sabiq vilayət rəhbəri Srdat Sarkisyan olmasına əminliyini bildirir. Onun sözlərinə görə, müstəntiqlər onu Vayots Dzor vilayətinin sabiq rəhbəri Srdat Sarkisyanın hadisəyə şahid olmadığına inanadırmağa çalışırlar. O, öz ərizəsi ilə hadisədən sonra tutduğu vəzifədən istefa verən vilayət rəhbəri Srdat Sarkisyanın yerinə onun yaxın adamı, hadisə üzrə təqsirli bilinərək saxlanılan Harutyun və Zaven Qriqoryan qardaşlarının vəkili olan Ararat Qriqoryanın Paşinyan tərəfindən həmin vəzifəyə təyin edilməsini absurd hesab edir. Qeyd olunur ki, hazırda yeni vilayət rəhbəri olan Ararat Qriqoryan hərbçinin heç kimi döymədiyini, özünün yerə yıxıldığını və adları çəkilən təqsirkar şəxslərin günahsız olduğunu sübut etməyə çalışır. Ancaq Ermənistan Müdafiə Nazirliyinin 4 əməkdaşının, eləcə də 3 zabitin ifadəsi mövcuddur. Həmin ifadələrdə zabitlər qeyd edir və Sarkisyanla üzləşmədə də vurğulayıblar ki, Qriqoryanın çağırışı ilə hadisə yerinə gələn 7-8 nəfərdən biri də vilayətin sabiq icra başçısı olan şəxs, yəni Srdat Sarkisyan olub. Onun sözlərinə görə, müstəntiqlər şahidlərin və zərərçəkənin bu ifadələrini gözardına vurur. Ərazidəki kameralardan da görünür ki, Sarkisyan hadisədən öncə binanın blokuna daxil olur. Ara Mxitaryanın qardaşı Karen Mxitaryan da qeyd edib ki, qardaşının vəziyyətində heç bir dəyişiklik yoxdur. Əvvəlki kimi uzanıb, gözləri açıq, baxır, amma heç kimi tanımır. Bütün bunlar zabitlərin də erməni ordusunda təhdidlərdən sığortalanmadığını göstərir. Elə bu səbəbdən ordudan fərarilik edənldr arasında, əsgərlərlə yanaşı, zabitlərin də sayının artması müşahidə olunur.

Erməni ekspert Artaq Malikyan bildirir ki, yaranmış vəziyyət ordunun döyüş qabiliyyətini aşağı salır, anarxiyanı dərinləşdirir. O, bu şəraitdə itklərin sayının artmasının da qaçılmaz olduğunu bildirir: "Rəsmi rəqəmlərə görə, təkcə ötən il 49 hərbçi itirmişik. Vəziyyət dəyişməsə, bu il onların sayı daha çox olacaq. Özü də nəzərə almaq lazımdır ki, Azərbaycan Qarabağ məsələsinin hərbi həllini istisna etmir və bu xüsusda fikirlərini daha çox ifadə edir".

***Nahid SALAYEV***

25-27 yanvar 2020
№ 13 (4144)

**Parlament seçkilərinin əsas mərhələsi sayılan təbliğat-təşviqat kampaniyası qızğınlığı ilə davam edir. Deputatlığa namizədlər arasında fərqli peşə sahiblərinə rast gəlmək mümkündür. Bu fərqlilik həm də onların apardığı təbliğat-təşviqat kampaniyasında özünü göstərir. Olduqca orijinal seçki kampaniyası aparanlardan biri də tanınmış gənc yazar Kəramət Böyükçöldür (Nəcəfov).**

# Kəramət Böyükçöl seçkidə xalq yazıçıları Anar və Elçinlə rəqib olsaydı, nə edərdi?

***Kəramət Böyükçöl:*** *"Beyləqandan olan bir seçicim kartıma 200 manat pul köçürüb"*

Məsələn, biz heç bir namizədin kampaniya dövründə belə səmimi etirafına rast gəlməmişik: "Kəndlərdən birində keçirdiyim görüşdə seçicilərdən biri məni kənara çəkib cibimə 100 manat qoydu". Kəramət bu etirafı ilə həm də başqalarının seçkiyə pul xərclədiyini, ona isə seçicilərin həm maddi, həm də mənəvi dəstək verdiklərini cəmiyyətə çatdırmaq istəyir. Məhz bu orijinal davranış bizi K.Böyükçöllə həmsöhbət olmağa vadar etdi.

**- Kəramət, seçki kampaniyan necə gedir?**

- Bu suala o biri namizədlər o qədər "yaxşı", "əla" cavabı veriblər ki, mənim işim əla gedəndə də bunu dilə gətirmək istəmirəm. Ona görə ki, deyəcəklər nə oldu, "elə hamıda təbliğat əla gedir". Hər halda, mənim işim doğrudan əla gedir. Mənim işim adamların, xalqın istəklərini, arzularını ifadə edən namizəd kimi əla gedir. Seçicilərin namizədlərə inamsızlığı vardı. Amma mən onlarla danışdıqdan, məsələləri izah etdikdən sonra onların münasibəti tamamilə dəyişib. Mən virtual bir cəmiyyətin, sosial medianın yetişdirdiyi bir gənc namizədəm. Əsl Azərbaycanı klassik televiziya kanallarından yox, virtual cəmiyyətin içindən görüb gəlmiş adamam. Ona görə də mən köhnə namizədlər, yaxud köhnə millət vəkilləri kimi ola bilmərəm. Əsl Azərbaycanı sosial şəbəkələrdə görən kəndlərdəki adamların səsini əllərindən 5-10, 15 manata almaq mümkün olmadığı kimi, mənim də seçicilərin mənafeyi uğrunda, onların hüquqlarının qorunması və sair istiqamətində görəcəyim işlərin qarşısını ala bilməyəcəklər. Köhnə deputatlar mal-mülklərini, vardövlətlərini itirməkdən qorxurlar, onlar hansısa bir məmurun maraqlarına xidmət edirlər, mən isə birbaşa seçicilərin özlərinə oxşayan adamam. Mənim seçicilərimlə bu şəkildə danışıqlarımdan sonra mənə inam və etimad göstərilməyə başladı.

**- Kəramət, yadındadırsa, keçən dövrkü seçkilərdə xalq şairləri, xalq yazıçıları özlərini daha aktiv namizədlər kimi təqdim edirdilər, amma bu seçkidə nədənsə onlar görünmədilər. Səncə niyə?**

- Xalq şairləri və xalq şairləri ki, var, onlar qapalı bir cəmiyyətin xalq şairləri, xalq yazıçıları idilər. Amma biz açıq cəmiyyətin yazıçı və şairləriyik. Açıq cəmiyyət deyəndə virtual aləmi, cəmiyyəti nəzərdə tuturam. Siz özünüz də bilirsiniz ki, o xalq şairlərinin və xalq yazıçılarının heç biri virtual cəmiyyətdə istər cəmiyyətin rəğbətini qazanmaq, istər cəmiyyətin fikirlərini, keçirdikləri hissləri ifadə etmək baxımından bizim qarşımıza çıxa bilməz. Tutalım, Xalq şairi Nəriman Həsənzadə, yaxud digər xalq yazıçıları və şairləri də "Facebook"dadı, Kəramət Böyükçöl də. Burada onların hansı üstünlük əldə edə bilər? Əlbəttə, mən.

Dəfələrlə cənab Prezident də çıxışlarında yeni simaların, yeni nəfəslərin, səslərin, gənclərin irəli çəkilməsini vurğulayıb. Çünki seçicinin özü gəncləşib, ona görə də millət vəkilinin gəncləşməsinə ehtiyac duyulur. Gənc seçici isə artıq virtual cəmiyyətdədir... Virtual cəmiyyəti görən o seçicilər gedib qocaman xalq yazıçılarına, xalq şairlərinə səs verməyəcək, gəlib Kəramətə səs verəcək.

**- Kəramət, təsəvvür et ki, hansısa bir xalq yazıçısı, yaxud xalq şairi ilə namizədliyinizi eyni dairədən vermisiniz. Məsələn, Anar Rzayev, Elçin Əfəndiyev, Nəriman Həsənzadə sənin rəqibindir... Belə olsaydı, üstünlüyü sən, yoxsa onlar qazanardı?**

- Xalq yazıçısı və xalq şairlərinin məsələləri həmişə kabinetlərdə həll olunub. Mən özümə güvənirəm, xalq yazıçısı, yaxud keçmiş millət vəkilləri gəlsinlər, biz onlarla xalqın, seçicilərin gözü qarşısında görüş keçirək. Seçicilərin gözü qarşısında danışaq, fikrimizi bildirək və sonra formal olaraq onların qarşısına bir qutu qoyaq görək onlar kimi seçəcək? Arxayınam ki, insanların gözü qarşısında hörmətli Xalq şairimiz Nəriman müəllim nə danışa bilər, hörmətli Xalq yazıçımız Anar müəllim nə danışa bilər və mən nə danışa bilərəm. Mən insanların daxilində keçirdikləri hisslərin, fikirlərin ifadəçisi kimi çıxış edən bir namizəd olduğuma görə əminəm ki, onlar mənə səs verərdi. Bilirsiniz ki, insanlar kiçik bir işıqucu gördükləri, azad fikir gördükləri yerə daha çox diqqət yetirirlər. Ona görə də insanlar onların fikirlərini ifadə edən, özlərinə oxşayan adamlara həmişə diqqət göstərirlər. Mən seçicilərimə oxşayan adamam, amma nə Anar müəllim, nə Nəriman müəllim, nə də digər xalq yazıçısı və şairləri o adamlara oxşayan adamlar deyillər. Buna əminəm, ona görə arxayın danışıram.



*"Mən seçicilərimə oxşayan adamam, amma nə Anar müəllim, nə Nəriman müəllim, nə də digər xalq yazıçısı və şairləri o adamlara oxşayan adamlar deyillər"*

**- Elza Seyidcahan da namizədliyini verib. Ondan deputat olar?**

- Elza xanıma mənim hörmətim var, dostumdur. Onun müğənni-bəstəkar kimi hörməti ola bilər, amma Elza xanımın cəmiyyətdə ictimai-siyasi siması, obrazı yoxdur. Amma mənim bu günə kimi göstərdiyim fəaliyyət, yazdıqlarım, jurnalistikadakı fəaliyyətim, çıxışlarım, bir növ, ictimai-siyasi fəaliyyətdir. Mənim həm də bir ictimai-siyasi simam, obrazım var. Ona görə də bir az məndə arxayınlıq hissi var.

**- Sən də müşahidə edirsən, sosial şəbəkələrdə də hər kəs görür, elə namizədlər var ki, onlar seçicinin "ürəyini" əl öpməklə, bəzi şit jestlərlə almaq istəyir. Bəziləri isə, ümumiyyətlə, öz platformalarını yaza bilmir...**

- Ən birinci problem bilirsiniz nədir? Namizəd özünə qiymət verə bilmirsə, o, seçicilərə necə qiymət verəcək? Seçkidə bir seçicinin, bir namizədin, bir də dövlətin, hakimiyyətin marağı var. Seçicidə bu günə kimi elə fikir formalaşıb ki, deputat kim olursa-olsun, onsuz da 5 il üzünü görməyəcəyik, fürsət düşmüşkən namizəddən əlimizə keçəni qoparaq. Namizədlər var ki, nəinki əl öpür, hətta 5-10 manat verib seçicilərin səslərini də almaq istəyirlər. Çünki o namizədin gözündə insanın qiyməti 10 manatdır. Ona görə də seçkidə ən ağlamalı, ən gülməli və ən faciəli olan seçicinin marağıdır. Namizədin marağına gəlincə, bir çox namizəd bilir ki, ondan deputat olan deyil, rəqiblərindən 5-3 manat pul alıb geri çəkilmək üçün öz namizədliyini irəli sürüb. Bir çox halda heç bir ciddi iddiası olmayan, insanlar tərəfindən maraqla qarşılanmayan namizədlərə rəqib kimi baxıb heç ona pul da vermirlər, belə deyək, onunla bazarlığa getmirlər, o da kənarda qalır. Elələri də var ki, heç 5-10 manata ehtiyacı yoxdur. Fikirləşir ki, ona bir vəzifə təklif etsinlər, iş versinlər. Ancaq bunlarla yanaşı, elə namizədlər də var ki, onlar seçilməsələr belə, cəmiyyət onun iddiasının olduğunu görür, cəmiyyətdə tanınan, öz sözünü deyən, az-çox haqq-ədalətin yanında olan adamdır. Dövlətin, hakimiyyətin marağı isə seçkilərin demokratik və ədalətli keçirilməsidir.

**- Rəqiblərin necə, güclüdür?**

- Bizim dairədə 19-20 namizəddir, amma ən iddialı olan 3-4 namizəd var ki, onlar həm də deputatlığa layiqdirlər. Onlar gənclərdir. Qoy azad, demokratik, şəffaf seçki keçirilsin, hər kəs təbliğatını aparsın, seçicilər kimə səs verər, o da seçilsin. Mən də siyasi mədəniyyət nümayiş etdirərək uduzsam belə, seçicilərin səs verib seçdiyi namizədi təbrik etməyə hazıram.

**- Kəramət, sən çox səmimi insansan, seçicilər də səninlə səmimidir?**

- Bəli. Kəndlərdə mənim sosial şəbəkələrdə dostluğumda olan çoxlu adam var. Yüz faiz bilirəm ki, o seçicilərin səsini əllərindən müxtəlif yollarla almaq mümkün deyil. Onların səs verəcəyi namizəd mənəm. Bax buna arxayınam. Onların hər biri də qohum-əqrəbasına, dost-tanışına, sözü keçən hər bir adama mənim mahiyyətimi izah edib, təbliğatımla təmənnasız şəkildə məşğul olurlar. Bir hadisə baş verdi və həmin hadisə məni çox təsirləndirdi. Beyləqandan olan bir seçicim kartıma 200 manat pul köçürüb. Deyir ki, sən bu yollarda maşın sürürsən, ora-bura gedirsən. Nə qədər istədim geri qaytaram, götürmədi. Həmin şəxs gənc coğrafiya müəllimidir. Təsəvvür edin ki, başqa namizədlər seçicilərə pul paylayır, hədiyyə verir, onların səsini almaq üçün müxtəlif jestlər edir, amma mənə seçici özü pul verir. 10 illə deputat olanlar şərait yaratmalıdırlar ki, gənclər gəlib deputat olsunlar. Bu vətən onların olduğu kimi, həm də bizimdir. Qoy biz də deputat olub insanlara özümüzü göstərək, nəyə qadir olduğumuzu göstərək. Parlamentin bir çox deputatı Milli Məclisdə xalqla dövlət arasında divar olublar, biz gənclər isə xalqla dövlət arasında körpü olmaq istəyirik.

*İradə SARIYEVA*

# Başqa ölkələr əhali artımının qarşısını almaq istəyir, Azərbaycan iqtisadi artımı əhali artımına daha yaxşı uyğunlaşdırmaq axtarışında...

**Məlum olduğu kimi, yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edib.**



*Pərviz Heydərov: "İqtisadiyyat inkişaf edərsə, istehsal sahələri də yaradılar"*

Görüş iştirakçıları region üçün 2020-ci ildə strateji prioritetləri müzakirə ediblər. Qeyd edək ki, sessiyanın gündəliyinə iqtisadi imkanların yaradılması, geosiyasi gərginliklərin idarə edilməsi və texnoloji tətbiqetmənin sürətlənməsi kimi məsələlər daxil edilmişdi. Müzakirə olunan məsələlərdən biri də əhalinin təbii artımının iqtisadi artım səviyyəsinə uyğunlaşdırılması idi. Prezident İlham Əliyev qeyd edib ki, bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir. Müstəqillik illərində əhalimizin sayı 7 milyondan 10 milyona qədər artdı. Beləliklə, əhaliyə əlavə infrastruktur, əlavə ərzaq təminatı tələb olunur: "Bizim əhalimiz hər il 100 mindən çox artır. Bu isə o deməkdir ki, bizə ən azından ildə 100 min iş yeri lazımdır. Bu, asan deyil. Buna görə də hökumət bu məsələ ilə məşğul olacaq. Biz yoxsulluğu bugünkü səviyyədə - 5 faizdən aşağı səviyyədə saxlamağa çalışacağıq". Azərbaycanın iqtisadi artımının əhalinin artımına uyğunlaşdırılması barədə fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Prezidentin Davos Forumunda iştirakı ölkəmiz üçün əhəmiyyətlidir: "Prezident İlham Əliyev hər il İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumunun toplantısında iştirak edir. Bu, olduqca əhəmiyyətli hadisədir və Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün vacibdir".

*"Əhalinin artım tempi ilə iqtisadi artım bərabər şəkildə getməlidir"*

P.Heydərovun sözlərinə görə, müstəqillik illərində əhalinin artımı 7 milyondan 10 milyona çatıb. Bu yaxşı göstəricidir: "Əhalinin artım tempi ilə bağlı Prezident dəfələrlə öz çıxışlarında bu məsələyə toxunub. Əhalinin artım tempi ilə iqtisadi artım bərabər şəkildə getməlidir. Bunun üçün açılan iş yerlərinin sayı artmalıdır. Eyni zamanda, artan əhalinin müvafiq tələbləri qarşılıqlı şəkildə ödənilməlidir. İqtisadiyyat inkişaf edərsə, istehsal sahələri də yaradılar. Belə olan halda, açılacaq iş yerlərinin sayı da artar. Bu məsələ hökumətin qarşısına çoxdan qoyulub. Prezidentin iştirakı ilə keçirilən müşavirələrdə də ölkə başçısı bu məsələyə xüsusi olaraq toxunub. Məlumat üçün bildirim ki, bu istiqamətdə müvafiq addımlar atılmaqda davam edir".

**Günel CƏLİLOVA**

# Xaricdə oxuyan gənclərimizin yarıdan çoxu rayon məktəblərinin məzunlarıdır...

**Bu gün gənclərin xarici ölkələrdə təhsil alması məsələsi geniş miqyas alıb. Bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da gənclər xaricdə təhsil almağa can atırlar. Xaricdə təhsil alan gənclərin sayı ildən-ilə artır. Maraqlı məqam ondan ibarətdir ki, xaricdə təhsil alanlar arasında rayon təhsil müəssisələrində təhsil alanlar üstünlük təşkil edir.**



***Məlahət Mürşüdlü:** "Xaricdə təhsil alanlar arasında müxtəlif bölgələrdə təhsil alan məzunlar üstünlük təşkil edir"*

Dövlət Statistika Komitəsinin 2019-cu ilin yanvar-dekabr ayları üzrə statistik hesabatı yayılıb. Həmin hesabatda qeyd olunur ki, 2019/2020-ci tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı 807 nəfər olub. Xaricdə təhsil alan gənclərin 44,6 faizi Bakı, 55,4 faizi isə müxtəlif regionlarda yerləşən məktəblərin məzunlarıdır. Tələbələrin əksəriyyəti Türkiyə, Rusiya, Macarıstan, Çin, Birləşmiş Krallıq və Kanadanın ali təhsil müəssisələrində təhsil alır. Regionlarda təhsil alan gənclərin xaricdə təhsil almasına daha çox üstünlük verməsini ekspertlər də təsdiq edirlər. Təhsil eksperti Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, azərbaycanlı gənclər daha çox Rusiya və Türkiyədə təhsil almağa üstünlük verirlər. Bu ölkələrlə yanaşı, digər Avropa ölkələrində də təhsil almağa maraq göstərirlər: "Məlumdur ki, hazırda informasiya əsrində yaşayırıq. Gənclər gələcək karyerasını qurmaq üçün öncədən internet üzərindən araşdırma aparır. Bölgələrdə yaşayıb, təhsil alan gənclər də ali təhsillərini xarici ölkədə davam etdirmək üçün əcnəbi ölkələrdə mövcud olan universitetlərlə bağlı araşdırma aparırlar".

*"Yüksək balla tələbə adını qazananlar arasında..."*

Həmsöhbətimiz hesab edir ki, bölgələrdəki təhsil müəssisələrində oxuyan gənclər olduqca savadlı kadrlardır: "Ali məktəbə qəbul üzrə statistikaya nəzər salsaq görərik ki, yüksək balla tələbə adını qazananlar arasında bölgə məktəblərində təhsil alan gənclər üstünlük təşkil edir. Əvvəllər belə bir fikir var idi ki, paytaxt məktəblərində oxuyanlar təhsilə daha çox önəm verirlər. Ancaq bu gün məlum fikir ölkənin bütün rayonlarına şamildir. İstənilən rayon və kənddə yaşayanlar övladının yüksək səviyyədə təhsil almasında maraqlıdır".

**Günel CƏLİLOVA**

# Sabirabad Mərkəzi Xəstəxanasında fövqəladə nə baş verib...

**Sabirabad Rayon Mərkəzi Xəstəxanasının dializ şöbəsində dializ alan xəstələrin kütləvi zəhərlənməsi haqqında məlumat yayılıb. Bu barədə məlumatı Saatlı rayon sakini Vüqar Ağakişiyev sosial şəbəkədə yayıb.**




***Sabirabad Rayon Mərkəzi Xəstəxanası - Dürdanə:** "Dializ xəstələri arasında kütləvi zəhərlənmə qeydə alınmayıb"*

O qeyd edir ki, 8 ildir dializ xəstələrini evlərindən xəstəxanaya aparıb-gətirir: "Əvvəllər Saatlıdan Şirvana aparırdım, indi isə Sabirabad Rayon Xəstəxanasına aparıb-gətirirəm. Yanvarın 23-də səhər saat 8:00-da xəstəxanaya apardım. Saat 12:00-da geri qaytaranda vəziyyətləri yaxşı deyildi. Sonra evdə daha da ağırlaşıblar və qohumları xətəxanaya aparıb. Hazırda xəstələr Sabirabad Rayon Xəstəxanasının reanimasiya şöbəsindədirlər.

Xəstələrin yaxınları da bu məlumatı təsdiq edə bilərlər. Zəhərlənmiş xəstələrə xəstəxanada lazımi tibbi dəstək göstərilib. Ancaq kütləvi zəhərlənmənin nədən baş verdiyi barədə heç kimə məlumat verilmir".

Məsələ ilə bağlı Sabirabad Rayon Mərkəzi Xəstəxanası ilə əlaqə saxladıq. Xəstəxananın tibbi statistik şöbəsinin nümayəndəsi Dürdanə adlı xanım "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, xəstəxanada kütləvi zəhərlənmə olayı qeydə alınmayıb: "Əgər dializ xəstələri arasında kütləvi zəhərlənmə baş versəydi, o zaman tibb müəssisəsində təlaş baş verərdi. Dializ xəstələri arasında kütləvi zəhərlənmə qeydə alınmayıb".

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Mətbuat xidmətinin rəhbəri Rəvanə Əliyeva ilə əlaqə saxladıq. O bizimlə söhbətində qeyd etdi ki, hadisə barəsində ətraflı araşdırma aparılaraq ictimaiyyətə məlumat veriləcək.

**Günel CƏLİLOVA**

# Akademiklərin yazdığı 7 cildlik "Azərbaycan tarixi"nə sərt tənqidlər səngimir

## *Faiq Ələkbərli: "Ümumiyyətlə isə 7 cildlik "Azərbaycan tarixi"ni yığışdırmaq lazımdır"*

**Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra, təbii olaraq, tariximizə yeni yanaşmalar meydana gəlməyə başladı. Əsas məsələ totalitar Sovet rejiminin 70 ildə saxtalaşdırdığı Azərbaycan tarixinin yenidən yazılması idi. Sovet dövründə saxtalaşdırılan, təhrif edilən Azərbaycan tarixinin milli ruhda yazılması, təhrif edilən səhifələrinin bərpa edilməsi əsas məsələ kimi tarixşünaslığın qarşısında dururdu.**

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun müəllifliyi ilə 7 cildlik "Azərbaycan tarixi"nin yazılmasına, yaradılmasına qərar verildi. Azərbaycan dövlətinin ayırdığı maliyyə hesabına nəşr edilən "Azərbaycan tarixi"nin ilk cildləri işıq üzü görər-görməz, mütəxəssislərin ciddi iradları ilə qarşılandı. Söhbət nəşrin cildlərində yer alan tarixi faktların bir-birinə zidd olması, eləcə də tarixə, tarixi şəxsiyyətlərə, tarixi dövrlərə dolaşıq münasibətlərdən gedirdi.

Məlumat üçün bildirək ki, AMEA-nın Tarix İnstitutu tərəfindən ilk dəfə 1998-2003-cü illərdə nəşr edilən və Azərbaycan tarixinin ən qədim zamanlardan 2002-ci ilə qədər olan dövrünü əhatə etdiyi 7 cildlik "Azərbaycan tarixi"nin I cildində "Azərbaycan dünyanın ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biri olduğu", Azərbaycan tarixinin ən qədim zamanlardan başlayaraq eramızın III əsrinin birinci rübü ilə başa çatan böyük bir dövrünü əhatə etdiyi", "Azərbaycan tarixi"nin II cildində isə III əsrdən tutmuş, XIII yüzilin I rübünədək olan dövrü tədqiq edilmiş, sasanilərin və ərəblərin hakimiyyətləri zamanı baş verən siyasi-ictimai, iqtisadi-mədəni dəyişikliklərin araşdırıldığı qeyd edilməklə yanaşı, həm də burada xilafətin zəifləndiyi dövrdə təşəkkül tapan Azərbaycan feodal dövlətlərinin tarixi, səlcuq yürüşü və onun nəticələri, Azərbaycan Atabəyləri dövlətinin yaranması və süqutu, eləcə də dövrün ictimai, iqtisadi, mədəni həyatı və maddi mədəniyyətinin bu cilddə geniş şərh olunduğu bildirilir.

Nəşrin III cildində orta əsrlər tarixinin XIII əsrdən başlayaraq son dövrü işıqlandırıldığı, monqol əsarəti və onun nəticələri, burada təşəkkül tapan Azərbaycan dövlətlərinin tarixi, onların yaranması və süqutu, xanlıqlar dövrü, xalqımızın xarici işğalçıların təcavüzünə qarşı azadlıq mübarizəsi, eləcə də dövrün ictimai-iqtisadi, mədəni həyatı ətraflı şərh olunub.

IV cilddə "XIX əsr Azərbaycan tarixinin əsas sahələri əhatə olunmuşdur. XIX əsrin başlanğıcında Çar Rusiyası Şimali Azərbaycanı istila etdi, yurdumuzun şimal torpaqları Rusiya imperiyasının tərkibində qaldı. Cilddə istilanın gedişi, Çar Rusiyasının Şimali Azərbaycanı ucqar müstəmləkəyə çevirməsi siyasəti, xalqın ona qarşı mübarizəsi, ölkənin sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi, əsrin son rübündə burada kapitalist münasibətlərinin qərarlaşması, bununla əlaqədar sənayenin, kənd təsərrüfatının inkişaf xüsusiyyətləri. Sosial dəyişikliklər, siyasi-ictimai hadisələr, eləcə də xalqımızın millət təşəkkül tapması, milli şüurun yüksəlişi, Azərbaycan dili və mədəniyyətinin inkişaf mərhələləri işıqlandırılıb" - deyə qeyd edilir. .

"Azərbaycan tarixi" çoxcildliyinin V cildində XX yüzilliyin son dərəcə mühüm hadisələrlə zəngin olan ilk iki onilliyi işıqlandırılıb. "Azərbaycan xalqının bütün həyat sahələrini əhatə edən köklü dəyişikliklərin baş verdiyi həmin dövrdə kapitalist istehsal münasibətlərinin iqtisadiyyatda aparıcı mövqe tutması, maarifçiliyə əsaslanan milli özünüdərk və ictimai şüurun milli dövlətçiliyi bərqərar etməklə nəticələnən böyük bir inkişaf mərhələsi keçməsi, ədəbiyyat və mədəniyyətin coşqun inkişafı, sosial-iqtisadi təkamül, cəmiyyətin digər mühüm proses və hadisələri bu cilddə diqqət mərkəzinə çəkilib.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasıilə nəticələnən milli-azadlıq hərəkatından geniş bəhs olunan bu cilddə Cümhuriyyətin müxtəlif sahələrdəki fəaliyyəti və onun süqutuna səbəb olan amillərlə yanaşı, milli dövlət quruculuğunda mühüm tarixi-siyasi əhəmiyyəti də şərh edilir".

Nəşrin VI cildində isə "Vətən tarixinin mürəkkəb və ziddiyyətli dövrlərindən biri olan 20-30-cu illərin uğurlu və məşəqqətli tarixi hadisələri nəzərdən keçirilir. Sovet hakimiyyətinin qurulması, "milli" dövlət quruculuğu, sənayeləşdirmə və kollektivləşdirmə, mədəni həyat, idarəetmənin zorakılıq, görünməmiş cəza tədbirləri ilə müşayiət olunan inzibati-amirlik sistemi, eləcə də yeni cəmiyyət qurmağın bütün ağırlıqlarını çiyinlərində daşıyan milyonlarla zəhmətkeşin gərgin əmək fəaliyyəti indiyədək öyrənilməmiş arxiv sənədləri və dövri mətbuat materialları əsasında tam və hərtərəfli şərh olunur".




*"...türklərin Azərbaycan ərazisində aborigen xalq olması faktı inkar olunur"*

"Azərbaycan tarixi"nin VII cildi Azərbaycanın 1941-ci ilin iyun ayından 2002-ci ilədək olan mürəkkəb, ziddiyyətli tarixi dövrünü əhatə edir. Kitab üç bölmədən ibarətdir. I bölmədə Azərbaycanın İkinci Dünya Müharibəsi dövrü tarixi, II bölmədə 1945-1991-ci illərdə, xüsusən 1970-ci illərdə və 1980-ci illərin birinci yarısında iqtisadi və mədəni yüksəliş, 80-ci illərin sonlarında başlanan milli oyanış, demokratik hərəkat, III bölmədə isə respublikanın suverenliyinin bərqərarlaşdırılması, müstəqil dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, ölkənin iqtisadi, siyasi, mədəni inkişafı arxiv sənədləri, dövri mətbuat materialları və mövcud elmi ədəbiyyat əsasında şərh olunur.

Qeyd etdiklərimiz Tarix İnstitutunun cildlərin məzmunu ilə bağlı verdiyi şərhlərdir.

Bəs görəsən mütəxəssislər niyə 7 cildlik "Azərbaycan tarixi"nin dərindən redaktə edilməsini, yaxud yenidən yazılmasını istəyirlər?

AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərli bizimlə söhbətində 7 cildlik "Azərbaycan tarixi"ndə bağlı ciddi irad irəli sürən mütəxəssislərlə razılaşdığını bildirdi. O da hesab edir ki, bu akademik nəşrdə kifayət qədər ideoloji qüsur var: "Biz 7 cildlik "Azərbaycan tarixi"ndə olan qüsurlar haqqında dəfələrlə danışmışıq, bu məsələyə öz mənfi münasibətimizi bildirmişik. Özü də bu kitab yenidən yazılmayıb. Bu əsasən Sovet dövründə yazılıb. Ölkəmiz müstəqillik əldə etdikdən sonra çox cüzi dəyişikliklərlə əvvəlcə kiril, daha sonra isə latın əlifbası ilə nəşr edilən 7 cildlik "Azərbaycan tarixi" Azərbaycan xalqının maraqlarına, dünyagörüşünə uyğun deyil. Bütün hallarda, 7 cildlik "Azərbaycan tarixi"nin birinci cildində bir hadisə ilə bağlı bir cildində bir söz deyilir, digər cildində isə onunla bağlı tamam əks fikir qeyd edilib. Nəşrin VI-VII cildlərinə gəlib çatanda birinci cildlə altıncı, yeddinci cild arasında hansı bağlar olduğu məlum olmur. Burada söhbət Azərbaycan xalqının keçdiyi yoldan gedir. Çox təəssüflər olsun ki, 7 cildlik "Azərbaycan tarixi"nin birinci və ikinci cildlərində Azərbaycan xalqının soykökü tamamilə irandillilərə, yaxud qafqazdillilərə bağlanır, türklərin Azərbaycan ərazisində aborigen xalq olması faktı inkar olunur. Beləliklə, orta məktəblərin 5-ci, 6-cı sinif "Azərbaycan tarixi" dərsliklərində isə bunun əksinə olaraq, vaxtilə mövcud olmuş kutilər, lulibilər, Manna, Midiya və digər dövlətlərin, dövlət qurumlarının türklərlə bağlı olması izah olunub. 7 cildlik "Azərbaycan tarixi"ndə bu cür ziddiyyətlər kifayət qədərdir. Yəni orta məktəblərdə tədris olunan "Azərbaycan tarixi" dərsliklərində bir çox məsələnin izah və şərhi ilə 7 cildlik "Azərbaycan tarixi" kitabındakı izahlar və şərhlər çox vaxt üst-üstə düşmür. Bu da istər orta məktəb şagirdlərində, istərsə də ali məktəb tələbələrində qarışıq, ziddiyyətli fikirlər yaranır. Tələbə və şagirdlər çaş-baş qalırlar, bilmirlər hansı kitaba inansınlar. Eyni zamanda, təkcə problem Azərbaycan xalqının kökünün türk olması, yaxud türklərin bura gəlmə və yaxud yerli olması ilə bağlı deyil. Hətta 7 cildlik "Azərbaycan tarixi"ndə orta əsrlərdəki türk dövlətlərinə, türk dövlətlərinin başçılarına çox mənfi münasibət var. Nəinki onlara mənfi münasibət var, hətta Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar işğalçı kimi, iranlı kimi qələmə verilir. Biz bilirik ki, akademik Ramiz Mehdiyevin tarixi mövzuda yazdığı kitablarında istər Şah İsmayıla, istər Nadir şah Əfşara, Ağa Məhəmməd şah Qacara, eləcə də xanlıqlar dövrünə həsr edilən əsərlərində, kitablarında onlar Azərbaycan şahları, başçılıq etdikləri dövlətlər isə Azərbaycan-türk dövlətləri kimi təqdim olunub. Hesab edirəm ki, tariximizə yenidən baxmaq, hadisələrə yenidən münasibət bildirmək, ümumiyyətlə isə 7 cildlik "Azərbaycan tarixi"ni yığışdırmaq lazımdır. Fikrimcə, 7 cildlik "Azərbaycan tarixi" ölkənin hər yerindən yığışdırılmalı, onun əvəzinə Azərbaycan türklərinin ruhuna uyğun yeni bir akademik şəkildə tarix kitabı yazılmalıdır".

**F.Ələkbərlinin sözlərinə görə, əks təqdirdə yeni nəslin şüurunda bizim bu günümüzə və gələcəyimizə mənfi fikirlər yaranacaq. Bunun tək yolunun isə 7 cildlik "Azərbaycan tarixi"nin yığışdırılması ilə bağlı olduğunu deyən F.Ələkbərli qeyd edir ki, bu kitab gənclərin fikrinin formalaşmasında mənfi rol oynayır.**

***İradə SARIYEVA***

# Bakının tarixi mərkəzini yaratmaq yolunda iş başladı - hansı rayonlar ləğv ediləcək...

**Bakının tarixi mərkəzinin yaradılması, bununla əlaqədar xüsusi rayonun təşkil edilməsi gündəmdədir. Bir ilə yaxındır ki, Prezident İlham Əliyev Bakının tarixi mərkəzinin yaradılması ilə bağlı aidiyyəti qurumlara xüsusi tapşırıq verib.**

***Rizvan Qarabağlı:** ”Bakının tarixi mərkəzi Səbail və Nəsimi rayonları ərazisində yaradılsa, daha məqsədəuyğun olar”*



*”...artıq bununla bağlı ölkə başçısının mövqeyi var, o bu mərkəzin yaradılmasını istəyir, ideyanı dəstəkləyir...”*

Bir neçə ay keçməsinə baxmayaraq, hələ də bu istiqamətdə elə də böyük işlər görülməyib, təkliflər də yetərincə deyil.

Onu da qeyd edək ki, Memarlar İttifaqının rəhbərliyi Bakının tarixi mərkəzinin əsasən üç rayon ərazisində yaradılmasını təklif edirdi. İttifaqdan bildirirdilər ki, tarixi mərkəz, yeni yaradılacaq mərkəzi rayon Nərimanov, Nəsimi və Səbail rayonları ərazisində yaradılmalıdır.

"İçərişəhər" DTMQİ-nin idarə heyətinin sədri Əsgər Ələkbərov isə mətbuata bildirib ki, hazırda iki rayon üzərində müzakirələr gedir. O, həmçinin, "ötən ilin mart ayında Prezident İlham Əliyevlə mədəniyyət xadimlərinin görüşündə Bakıda mərkəzi rayonun yaradılması barədə təklif səslənib, bu istiqamətdə iş aparılır. Hazırda Romanın "Mərkəz 1" adlandırılan bələdiyyəsi ilə əməkdaşlıq sazişi barədə danışıq aparılır. Romanın mərkəzi bir bələdiyyədə cəmləşib. Bakı Şəhər İcra Hakimiyyəti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Memarlıq İttifaqı ilə hazırda Prezidentin tapşırığı istiqamətində iş aparılır. Yəqin ki, mərkəzi rayonun yaradılması ilə bağlı Səbail, Nəsimi kimi rayonlardan söhbət gedir. İçərişəhərə gəlincə, İçərişəhərin artıq xüsusi statusu var. 2005-ci ildən İçərişəhər qoruğunun öz administrasiyası yaradılıb. Bununla da İçərişəhər xüsusi böyük bir status qazanıb".

Mütəxəssislər hesab edirlər ki, Bakının tarixi mərkəzinin yaradılması yalnız bir neçə arxeoloji və memarlıq abidəsinin mühafizəsinin təşkil edilməsi ilə məhdudlaşmır. Bakının tarixi mərkəzinin yaradılması üçün böyük bir layihə olmalıdır və proses bu layihə əsasında həyata keçirilməlidir.

Memarlıq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Memarlar İttifaqının üzvü Rizvan Qarabağlı

hesab edir ki, Bakının tarixi mərkəzi rayonunun təşkil edilməsi üçün bütün əlaqədar qurumlar təkliflər verməli, xüsusi layihələr təqdim etməlidirlər. R.Qarabağlının sözlərinə görə, Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyən edilməsi üçün bütün detallar dəqiqliyi ilə nəzərə alınmalıdır. "Bakının mərkəzi rayonunun təşkil edilməsi müsbət haldır, amma gərək bunun üçün konkret layihə olsun ki, proses həmin layihəyə uyğun şəkildə getsin. Paytaxtın mərkəzində ayrıca bir tarixi rayon mərkəzinin yaradılması özü maraqlıdır. Bu, Nəsimi və Səbail rayonları ərazisində yaradılmalıdır, çünki mərkəzdə yalnız bu iki rayon yerləşib. Nərimanov rayonu isə kənardır, həm də burada elə də qədim abidələr yoxdur, burada əsasən yeni abidələr, yeni və nadir tikintilər var. Bu başqa məsələdir. Amma həm Nəsimi, həm də Səbail ərazisində orta əsr, eləcə də digər dövrlərə aid abidələr mövcuddur. Orta əsr abidələri əsasən İçərişəhərdə - Bakı qalasında yerləşir. Köhnə Səbail şəhəri də suyun içində qalıb. Hər iki rayonda abidələr çoxdur. Hətta kapitalist dövrü memarlığı da həmin ərazidədir. Yəni mərkəzi rayonun yaradılması, buradakı abidələrin mühafizəsi və s. məsələdən danışılırsa, hesab edirəm ki, Bakının tarixi mərkəzi Səbail və Nəsimi rayonları ərazisində yaradılsa, daha məqsədəuyğun olar. Hər bir abidənin mühafizə zonası olmalıdır. Ümumiyyətlə, Bakının tarixi mərkəzi yaradılacaqsa, gərək həmin əraziyə münasibət fərqli olsun. Bakının tarixi mərkəzinə aid həmin ərazi xüsusi mühafizə olunmalıdır, oradan ağırtonnajlı maşınlar keçməməlidir, səs-küy olmamalıdır, orada toz-torpaq yaradan işlər aparılmamalıdır, hətta küləyin qarşısına belə xüsusi çəpərlər çəkilməlidir, külək ora çox daxil olmasın. Burada bütün parametrlər gözlənilməlidir. Bilirsiniz, Bakının mərkəzində yeni bir mərkəz yaradılır, artıq bununla bağlı ölkə başçısının mövqeyi var, o bu mərkəzin yaradılmasını istəyir, ideyanı dəstəkləyir, bütün əlaqədar qurumlar da öz profillərinə uyğun olaraq bu mərkəzin yaradılması ilə bağlı işlənəcək layihənin hazırlanmasında öz təklifləri, fikirləri ilə iştirak etməlidirlər. Müxtəlif qurumlar aktiv olmalıdırlar.

**Prezidentə bununla bağlı sərəncam verdiyi üçün təşəkkür edirik. Amma bu işin həyata keçirilməsində əsas rol oynayacaq qurumlar ortaya iş qoymalı, onlara tapşırılan işlə ciddi məşğul olmalıdırlar" - deyə bildirən R.Qarabağlı hesab edir ki, Bakının tarixi mərkəzi yaradılarkən abidələrin bərpası, mühafizəsi xüsusən nəzərə alınmalıdır. "Abidələri qorumurlar. Mədəniyyət Nazirliyində abidələrin qorunması ilə bağlı mövcud olan sistem özünü doğrultmur".**

*İradə SARIYEVA*

№ 13 (4144) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

25-27 YANVAR 2020-ci il



## Meşə yanğınları ilə mübarizə aparan Avstraliyada analoqu olmayan yaşayış məskəni...

**Aylardır davam edən meşə yanğınları ilə mübarizədə uduzan Avstraliya analoqu olmayan yaşayış məskəni ilə dünya gündəminə düşüb.**

"Milli.Az" xəbər verir ki, qitənin cənubunda yerləşən Kuber-Pedi qəsəbəsinin sakinlərinin hamısı yerin altında yaşayır. Adelayde şəhərindən 846 km şimalda yerləşən bu qəsəbə opal mədənçilik sənayesinin mərkəzi hesab olunur. Hazırda Kuber-Pedinin 100-dən çox sakini var. Qəsəbə dayanıqlı yaşayış məskəni anlamında lider olmaq yolunda irəliləyir. Buradakı insanları yerin altında yaşamağa vadar edən səbəb isə nə qədər qəribə səslənsə də, opal mədənlərindən ətrafa yayılan qırmızı toz örtüyüdür. Xalq daha sərin və yaşayışa uyğun hava əldə etmək üçün bütün yaradıcılığından istifadə edərək köhnə mədənlərdə sənət qalereyasından kilsəyə qədər hər cür şəraiti olan şəhər salıb. 100 il əvvəl gənc bir oğlan tərəfindən təsadüfən kəşf edilən opal mədənləri işçilərinin saldığı qəsəbənin dünyada məşhur olmasının səbəbi isə elektrik enerjisi layihəsidir. 2017-ci ildə təqdim edilən layihəyə əsasən bölgənin günəşli və küləkli havasından faydalanaraq daimi enerji əldə olunur və bu, qəsəbənin 70%-ni enerji ilə təmin edir. Yayda istiliyin 53 dərəcəyə qədər qalxdığı bir yerdə bu təmiz qaynaq enerji üçün istifadə edilən mazutun istisi və dumanından xilas olmanı təmin edir. Qəribəliklərlə dolu qəsəbədə yaşayan sakinlər yeraltı evlərə öyrəşdiklərini və artıq normal evdə yaşamaq istəmədiklərini deyir. İsitmə və soyutmaya əsla ehtiyac duyulmayan evlərdə yaşamaq maliyyə baxımından da əlverişlidir. Burada təmirə və dəyişikliklərə çox vəsait tələb olunmur. Bir çox filmə ev sahibliyi edən Kuber-Pedidə əhəng daşlarının əsrarəngiz parıltısı ətrafa təbii gözəllik və cazibə bəxş edir. Qəsəbədə mükafatlara layiq görülmüş hotel belə mövcuddur. 19 otağı yerin altında, 31 otağı isə üst qatda yerləşən hotel təbiətin işvəsinə meydan oxuyur.

## Elan

Şəki şəhər sakini Həşimov Əsədulla Məmməd oğlunun adına verilmiş 5047 / 4418 saylı torpaq qeydi sənədi itdiyi üçün etibarsız sayılır.

Quliyeva Qumru Mirzəağa qızının adına, Abşeron rayonu, Xırdalan qəsəbəsi, 28-ci məhəllədə yerləşən 21/20 yaşayış sahəsinə verilmiş, 30793 reyestr kitabında yazılmış qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

29 iyun 1988-ci ilin OBM orderi (N081669) itdiyi üçün etibarsız sayılır.

İsmayılzadə Rəşid Malik oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əhmədov Oktay Mustafa oğlunun adına, Zirə bağlar massivində yerləşən 479q/7 saylı bağ sahəsinin orderi və digər sənədləri itdiyi üçün etibarsız sayılır.

Cavadova Svetlana Bəhman qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Cəfərov Malik İbrahim oğlunun adına 08.07.2005-ci il tarixdə DTXK tərəfindən verilmiş JN-23391 nömrəli torpağa aid sənəd itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in 4G şəbəkəsi ölkənin ən yüksək keyfiyyətli şəbəkəsi olaraq tanınıb

*Lider mobil operator özünün radiobaza stansiyalarının sayını üç minə çatdırdı*

**2019-cu il "Azercell Telekom" üçün şəbəkənin modernləşdirilməsi və təkmilləşdirilməsi, eləcə də müştəri təcrübəsinin yüksəldilməsi istiqamətində aparılmış genişmiqyaslı təşəbbüslərlə zəngin oldu.**

Belə ki, 2018-ci ilin noyabrından 2019-cu ilin sonuna qədər "Azercell" ölkə boyu 4G şəbəkəsinin coğrafi əhatəsini 366% artıraraq əhali əhatəsində 120% yüksəlişə nail olub. Ümumilikdə, daha keyfiyyətli, daha çox tutuma malik və yeni texnologiyaların tətbiqinə hazır şəbəkənin təqdim edilməsi məqsədilə qeyd olunmuş müddət ərzində bütün ölkə üzrə toplam 1617 yeni radiobaza stansiyası quraşdırılıb ki, onların da 1217-ni 4G şəbəkəsi üzərindən çalışan saytlar təşkil edir. Beləliklə, "Azercell" şirkətinin ümumi stansiya sayı 2956-ya çatdı. Şəbəkə keyfiyyətinin yüksəldilməsi, həmçinin, istifadə həcminin də artmasına şərait yaratdı: "Azercell" şəbəkələri vasitəsilə ötürülən internet trafikinin həcmi 304% artdı. Xatırladaq ki, "Systemics" Avropa şirkətinin Azərbaycanda keçirdiyi müstəqil bençmarkinq testi "Azercell"in ölkənin bütün bölgələrində 4G xidmətlərinin ən yüksək keyfiyyət təmin etdiyini təsdiqləyib.

Yerli bazarda lider mövqeyini qoruyan "Azercell", ölkədə 5G şəbəkəsinin test rejimində istifadəyə verilməsini həyata keçirən ilk operator oldu. Hazırda 8 sayda 5G baza stansiyasını quraşdıraraq, mobil operator paytaxtın mərkəzi - Fəvvarələr Meydanı və Nizami küçəsinin bir hissəsini test rejimində yeni nəsil şəbəkəsi ilə əhatə etdi və yaxın gələcəkdə həmin xidmətin tam şəkildə istifadəsini təmin etmək niyyətindədir. Nəzərinizə çatdırmaq istərdik ki, 5G texnologiyası mobil İnternet təkamülünün növbəti mərhələsi olaraq, müştərilərə tamamilə yeni xidmət səviyyəsi və imkanlar təqdim edir. Belə ki, ən yeni nəsil şəbəkəsi supersürət, inanılmaz minimal gecikmə təminatı ilə birgə, yeni sənaye sahələrinə inkişaf etmiş performans, səmərəlilik və minimuma endirilmiş istehsal xərcləri kimi imkanları bəxş edəcək. Bundan əlavə, IoT texnologiyalarının (Əşyaların İnterneti) genişləndirilməsi ehtimalını nəzərə alaraq, yeni nəsil şəbəkəsi öz-özünü idarə edən nəqliyyat vasitələri və uzaqdan idarə olunan cərrahiyyə prosesini reallığa çevirəcək.

Qeyd edək ki, 5G şəbəkəsinin inkişaf etdirilməsi ilə yanaşı, "Azercell" 2020-ci ildə də ölkə sakinlərini yüksək keyfiyyətli mobil şəbəkə ilə təmin etmək məqsədilə regionlarda 4G şəbəkəsinin genişləndirilməsini davam etdirəcək.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Gün böyük uğurlarla yadda qalacaq. Lovğalıqla tanınmaqdan qorxmayın: sizin nailiyyətləriniz maraq kəsb edəcək. Əvvəllər pozulmuş münasibətləri bərpa etmək şansı var.



**Buğa** - Əmr vermək, rəhbərlik etmək istəyi var və bu, alınır. Bədbəxtlikdən, uğur üçün bu kifayət deyil: özünüz də işləməlisiniz. Bu gün bir çox Buğalar anlayacaqlar ki, yalnız əmək şücaətinə qadir deyillər, həm də bundan zövq alırlar.



**Əkizlər** - Tərəzilər çətin işlərin həllinə həvəslə girişəcək və öz mövqelərini möhkəmləndirməyə bel bağlayacanlar. Bu arada uğura yol asandır və tikanlı deyil: çeviklik nümayiş etdirsəniz, hədəfinizə olduqca tez çata bilərsiniz.



**Xərçəng** - Bu gün çox zəngin olmağı vəd edir. Məsələ yalnız düzgün qrafikin tutulması və vaxtın rasional bölünməsidir. Günün birinci yarısı dəqiq elmlər, hesab və planlaşdırma işləri ilə məşğul olmaq üçün münasibdir.



**Şir** - Çox şey dəyişsə də, Şirlər başlarını itirməyəcəklər. Ətrafda qaçaqaç və çaxnaşma müşahidə olunsa da, bu, planlar qurmağa, seçdiyiniz taktikaya uyğun hərəkət etməyə mane olmayacaq.



**Qız** - Siz hədəfinizə doğru cəsarətlə gedirsiniz. Çətin ki bu, ətrafdakıların xoşuna gəlsin. Lakin nəticələr çox gözəl olacaq. Əgər vacib danışıqlara hazırlaşırsınızsa, özünüzlə etibar etdiyiniz gənc qadını da aparın.



**Tərəzi** - İşdə əhəmiyyətli uğurlar mümkündür. İş prosesinin təşkili ilə bağlı yaxşı ideyalar yaranacaq. Onları dərhal rəhbərliklə müzakirə etmək olar. Bu gün iş yerini dəyişəcək Tərəzilər çoxlu yeni öhdəliklər yaradacaqlar.



**Əqrəb** - Bəzən özünüzü çox açıq aparırsınız. Bu, yaxınlarınızın xoşuna gəlməyə bilər. Ailənin yaşlı üzvləri ilə ciddi fikir ayrılıqları istisna deyil. Alkoqollu içkilərdən sui-istifadədən uzaq olun.



**Oxatan** - Şəxsi həyatda sabitlik hökm sürəcək və bu, yəqin ki, sizi sevindirəcək. Ani tanışlıqlar və maraqlı əyləncələr darıxmağa imkan verməyəcək. Daha ciddi Oxatanlar diqqəti təhsilə yönəldə bilərlər.



**Oğlaq** - Bu gün çətin tapşırıqların alınması, məsuliyyətli vəzifələrin yerinə yetirilməsi ilə əlamətdar olacaq. Rəhbər Oğlaqlar bütün işləri şəxsi nəzarətlərində saxlamağa məcbur olacaqlar, işçi Oğlaqlar isə anlayacaqlar ki, onları hətta ən əhəmiyyətsiz səhvə görə də bağışlamayacaqlar.



**Dolça** - Unutmayın ki, cidd-cəhdlə işləyənlərə yaxşı istirahət vacibdir. Əgər kübar mərasimləri ziyarət etməyi planlaşdırırsınızsa, orada çox ləngiməyin. Ənənəvi gün rejiminə sadiq qalmaq məsləhətdir.



**Balıqlar** - İş baxımından çox uğurlu gün deyil. Digər tərəfdən, məhz bu gün daha əhəmiyyətli qələbələr qazana bilərsiniz. Əgər xırda işlər arasında parçalansanız, yerinizdən bir addım da irəli gedə bilməyəcəksiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Qədim Misir mumiyasının səsini bərpa etdilər

**Alimlər qədim Misir mumiyasının səsini bərpa ediblər. "Ölkə.az" xəbər verir ki, Britaniyada tədqiqatçılar ölülərin danışdıqlarını sübut ediblər.**

Onlar 3000-dən çox yaşı olan Misir mumiyasının səsini bərpa edə biliblər. Mumyalanmış cəsəd 50 yaşında vəfat edən qədim Misir keşişinə aid olub. Onlar hesablanmış kompyuter tomoqrafiya kombinasiyasından, 3D çap və elektron boğazının birləşməsindən istifadə edərək, bir necə səsin səslənməsini əldə ediblər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.